# THE GREAT VICTORY AS A MULTIDIMENSIONAL SOCIO-HUMANITARIAN PHENOMENON: A PHILOSOPHICAL ANALYSIS

**Sevinc Huseynova**[1]

**UDC:** 1:316.7:124.5:94(479.24)
**LBC:** 87.6:63.3(5Aze)
**HoS:** 142
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.198-219

**Keywords:**

Great Victory,
War,
Semiotics,
Axiology,
Anthropology,
Existence,
Collective identity,
Values

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Social Philosophy

## ABSTRACT

The article investigates the Great Victory as a complex, multidimensional sociocultural and philosophical event, revealing its meaning through the confluence of linguistic, historical-legal, semiotic, ontological, epistemological, axiological, anthropological, and existential perspectives. It is suggested that the Great Victory is more than just a military-political outcome; it also serves as a type of affirmation of existence, collective identity, and the value foundations of society. The linguistic dimension is emphasised, with the Great Victory viewed as a discursive fabrication created by language, symbols, and communicative practices that play an important part in information warfare. The study examines its semiotic nature as a system of symbols and signals that ensures the Great Victory's enduring presence in public awareness and history. Ontological and epistemological analyses allow us to read the Great Victory as an assertion of life over non-being, as well as the result of purposeful collective action rooted in a value-based interpretation of reality.In the axiological dimension, the Great Victory is depicted as the embodiment of basic values—such as justice, freedom, humanism, patriotism, and solidarity—that shape human motivation and behaviour during battle.Anthropological and existential views examine the Great Victory from the perspective of the warrior's individuality, freedom, responsibility, and self-sacrifice. Finally, it is emphasised that it is precisely in extreme "boundary" situations of battle that the essential character of the human person becomes actualised, and that the Great Victory serves as a type of existential self-affirmation for both the individual and the people as a whole.

[1] Lecturer, Department of Humanities and Philosophy, Azerbaijan State Oil and Industry University; Baku, Azerbaijan
E-mail: sevincismaylova90@gmail.com
https://orcid.org/0009-0009-8736-4985
**To cite this article:** Huseynova, S. [2026]. The Great Victory as a Multidimensional Socio-humanitarian Phenomenon: a Philosophical Analysis. *History of Science journal*, *7*(1), pp.198-219.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.198-219

***Article history:***
*Received: 25.12.2025*
*Revised: 26.01.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

History of Science
Vol 7, issue 1, serial 24, 2026, pp.198-219

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# BÖYÜK ZƏFƏR ÇOXÖLÇÜLÜ SOSİOHUMANİTAR FENOMEN KİMİ: FƏLSƏFİ TƏHLİL

**Sevinc Hüseynova**[1]

**UOT:** 1:316.7:124.5:94(479.24)
**KBT:** 87.6:63.3(5Aze)
**HoS:** 142
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.198-219

**Açar sözlər:**

Böyük Zəfər,
Müharibə,
Semiotika,
Aksiologiya,
Antropologiya,
Ekzistensiya,
Kollektiv kimlik,
Dəyərlər

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Sosial Fəlsəfə

**ANNOTASİYA**

Məqalədə Böyük Zəfər mürəkkəb, çoxölçülü sosiomədəni və fəlsəfi fenomen kimi nəzərdən keçirilir; onun əhəmiyyəti linqvistik, tarixi-hüquqi, semiotik, ontoloji, qnoseoloji, aksioloji, antropoloji və ekzistensial yanaşmaların vəhdətində açıqlanır. Əsaslandırılır ki, Böyük Zəfər yalnız hərbi-siyasi nəticə ilə məhdudlaşmır, həm də varlığın, kollektiv identikliyin və cəmiyyətin dəyər əsaslarının təsdiq forması kimi çıxış edir. Məqalədə Böyük Zəfərin informasiya müharibələri şəraitində mühüm rol oynayan dil, simvollar və kommunikativ praktikalar vasitəsilə formalaşan diskursiv konstruksiya kimi linqvistik ölçüsünə xüsusi diqqət yetirilir. Böyük Zəfərin ictimai şüurda və tarixi yaddaşda möhkəmlənməsini təmin edən simvollar və işarələr sistemi kimi semiotik təbiəti təhlil olunur. Ontoloji və qnoseoloji təhlil Böyük Zəfəri yoxluq üzərində həyatın təsdiqi və reallığın dəyərlər əsasında şərhi ilə məqsədyönlü kollektiv fəaliyyətin nəticəsi kimi interpretasiya etməyə imkan verir. Aksioloji ölçüdə Böyük Zəfər müharibə şəraitində insanın motivasiyasını və davranışını müəyyən edən ədalət, azadlıq, humanizm, vətənpərvərlik və həmrəylik kimi fundamental dəyərlərin təcəssümü kimi təqdim olunur. Antropoloji və ekzistensial yanaşmalar Böyük Zəfəri döyüşçünün şəxsiyyəti, onun azadlığı, məsuliyyəti və fədakarlıq qabiliyyəti prizmasından açır. Nəticə olaraq vurğulanır ki, müharibənin məhz ekstremal, "sərhəd" vəziyyətlərində insanın həqiqi mahiyyəti aktuallaşır, Böyük Zəfər isə insanın və bütövlükdə xalqın ekzistensial özünütəsdiq forması kimi çıxış edir.

[1] Müəllim, Humanitar fəlsəfə kafedrası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti; Bakı, Azərbaycan
E-mail: sevincismaylova90@gmail.com
https://orcid.org/0009-0009-8736-4985

**Məqaləyə istinad:** Hüseynova, S. [2026]. Böyük Zəfər Çoxölçülü Sosiohumanitar Fenomen kimi: Fəlsəfi Təhlil. *History of Science jurnalı*, *7*(1), səh.198-219.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.198-219

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 25.12.2025*
*Yenidən baxılıb: 26.01.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ВЕЛИКАЯ ПОБЕДА КАК МНОГОМЕРНОЕ СОЦИАЛЬНО-ГУМАНИТАРНОЕ ЯВЛЕНИЕ: ФИЛОСОФСКИЙ АНАЛИЗ

**Севиндж Гусейнова**[1]

**УДК:** 1:316.7:124.5:94(479.24)
**ББК:** 87.6:63.3(5Азе)
**HoS:** 142
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.198-219

**Ключевые слова:**

Великая Победа,
Война,
Семиотика,
Аксиология,
Антропология,
Экзистенция,
Коллективная идентичность,
Ценности

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Социальная философия

## АННОТАЦИЯ

В статье Великая Победа рассматривается как сложное, многомерное социокультурное и философское событие, раскрывающее его смысл через слияние лингвистических, историко-правовых, семиотических, онтологических, эпистемологических, аксиологических, антропологических и экзистенциальных перспектив. Предполагается, что Великая Победа – это не просто военно-политический результат; она также служит своего рода утверждением существования, коллективной идентичности и ценностных основ общества. Особое внимание уделяется лингвистическому измерению, рассматривая Великую Победу как дискурсивную фабрикацию, созданную языком, символами и коммуникативными практиками, играющими важную роль в информационной войне. Исследование анализирует её семиотическую природу как систему символов и сигналов, обеспечивающую устойчивое присутствие Великой Победы в общественном сознании и истории. Онтологический и эпистемологический анализы позволяют рассматривать Великую Победу как утверждение жизни над небытием, а также как результат целенаправленных коллективных действий, основанных на ценностно-ориентированной интерпретации реальности. В аксиологическом измерении Великая Победа изображается как воплощение основных ценностей — таких как справедливость, свобода, гуманизм, патриотизм и солидарность, — которые формируют мотивацию и поведение человека во время битвы. Антропологические и экзистенциальные взгляды рассматривают Великую Победу с точки зрения индивидуальности, свободы, ответственности и самопожертвования воина. Наконец, подчеркивается, что именно в экстремальных «пограничных» ситуациях битвы проявляется сущностная характеристика человеческой личности, и что Великая Победа служит своего рода экзистенциальным самоутверждением как для отдельного человека, так и для народа в целом.

[1] Преподаватель, Кафедра гуманитарной философии, Азербайджанский государственный университет нефти и промышленности; Баку, Азербайджан
E-mail: sevincismaylova90@gmail.com
https://orcid.org/0009-0009-8736-4985
**Цитировать статью:** Гусейнова, С. [2026]. Великая Победа как многомерное социально-гуманитарное явление: философский анализ. *Журнал History of Science*, *7*(1), с.198-219.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.198-219

***История статьи:***
*Поступила: 25.12.2025*
*Переработана: 26.01.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Ümumiyyətlə müharibənin mahiyyətini anlamaq problemi əbədi məsələlərdən biri hesab oluna bilər. Müxtəlif və bəzən də ziddiyyətli interpretasiyalarda müharibə həmişə fəlsəfənin mövzuları sırasında olmuşdur və bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Hazırda baş verən hadisələr, xüsusilə Rusiyanın Ukraynaya hərbi müdaxiləsi müharibənin yalnız bəşəriyyətin keçmiş dövrlərinə aid olduğu fikrinin nə dərəcədə illuziya olduğunu göstərdi. Xalqımıza sonsuz səmimi sevinc, sevgi və nur gətirən uca, möhtəşəm Zəfər xalqımızın əməyini, əsgərlərimizin böyük qəhrəmanlığını qiymətləndirməyi öyrədir. Böyük Zəfərin dərin metafizik, sosial və mənəvi-əxlaqi mahiyyəti, bu hadisənin gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində müasir və gələcək Vətən müdafiəçiləri üçün nümunə kimi rolunda öz əksini tapır. Lakin mövzu ilə bağlı ədəbiyyatın təhlili göstərir ki, müasir ictimai şüurda Böyük Zəfərin qavranılması təcrübəsi ictimai həmrəyliyin möhkəmləndirilməsi baxımından yetərincə qiymətləndirilməmiş, həmçinin Böyük Zəfər haqqında tarixi yaddaşın qorunub saxlanılmasının Azərbaycan cəmiyyətinin ictimai şüuruna təsiri və nəsillərarası kommunikasiyada rolu kifayət qədər müəyyən edilməmişdir. Bu hadisənin gələcəkdə dövlətdaxili sabitliyə və təhlükəsizlik mühitinə təsir imkanları onu daha dərindən tədqiq etmək zərurətini şərtləndirir. Unudulmamalıdır ki, Azərbaycan cəmiyyətinin irəliləyişinin mühüm şərti 44 günlük müharibədə qazanılmış qələbənin fundamental dəyər kimi qəbul edilməsi və bunun əsaslandırılmasıdır. Bu qələbənin layiqincə qiymətləndirilməsi cəmiyyətimizin sosial dayanıqlılığını daha da gücləndirəcək, onu müasir çağırışlar və təhdidlərə qarşı daha hazırlıqlı və həmrəy edəcəkdir.

Mövzu üzrə ədəbiyyatın təhlili Böyük Zəfər fenomeninin bir sıra öyrənilməmiş cəhətlərini üzə çıxardı. Məlumdur ki, cəmiyyətin mənəvi davamlılığını təmin edən əsas amil onun ideoloji dayağıdır. Müasir Azərbaycanın bu mənəvi-ideoloji dayağı - Zəfər ideologiyası artıq formalaşmaqdadır, lakin o, dərin fəlsəfi əsaslandırmaya ehtiyac duyur. Böyük Zəfər fəlsəfi anlayış kimi indiyədək tədqiqat obyekti olmamışdır. Zəfər fəlsəfəsinin işlənməsi Azərbaycan xalqının öz Vətəninə münasibətinin, onun tərəqqisi və uğurlarına bağlılığının formalaşması üçün metodoloji əsas və mənəvi bələdçi rolunu oynayar. O, həm fərdi, həm də kollektiv səviyyədə tarixi məsuliyyət hissinin, vətənpərvərlik şüurunun və ideya bütövlüyünün inkişafına xidmət edər.

Mövzunun mahiyyətini anlamaq üçün ilk öncə müharibə və zəfərin mahiyyət və məzmun xüsusiyyətlərini nəzərdən keçirək. “Zəfər” sözünün etimologiyası çox maraqlı və dərin mənəvi qatlara malikdir. “Zəfər” sözü ərəb mənşəlidir (ərəb. ظَفَر – ẓafar ) və onun əsas mənası “qalib gəlmək”, “uğur qazanmaq”, çox uzun səbr edəndən sonra murada çatmaq, “müvəffəqiyyət əldə etmək”, həmçinin “düşmən üzərində üstünlük” deməkdir.

Ərəb dilində bu kökdən yaranmış feli formalar (“ẓafara bi–”) “kiminsə üzərində qələbə çalmaq”, “mübarizədə üstün olmaq” anlamını verir. Klassik ərəb mətnlərində “ẓafar” həm də ilahi ədalətin təcəllası nəticəsində əldə olunan ədalətli qələbə mənasında işlədilmişdir. Azərbaycan dilinə bu söz klassik islam mədəniyyəti və ədəbiyyatı vasitəsilə, xüsusilə orta əsr poeziyasında və dini-fəlsəfi mətnlərdə daxil olmuşdur. Nizami Gəncəvi, Füzuli, Nəsimi kimi şairlər “zəfər” sözünü təkcə hərbi qələbə deyil, həm də mənəvi üstünlük , ruhi kamillik və haqqın batil üzərində qalibiyyəti anlamında işlətmişlər. Beləliklə, “zəfər” anlayışı Azərbaycan mədəni-fəlsəfi müstəvisində iki əsas məna qatında formalaşmışdır: a) Dünyəvi səviyyədə – düşmən üzərində qələbə, məqsədə çatma, mübarizənin nəticəsi; b) Mənəvi səviyyədə – haqqın qalib gəlməsi, ədalətin bərpası, ruhun zəfəri. Bu semantik ikili təbiət “zəfər” sözünü sadəcə hərbi və ya siyasi hadisənin deyil, həm də əxlaqi, estetik və mənəvi qələbənin simvoluna çevirmişdir.

İngilis-sakson (ing. *victory*) və fransız (fr. *victoire*) mədəniyyətlərində isə "zəfər" anlayışı əsasən çətinliklərin öhdəsindən gəlmək kimi deyil, müəyyən bir uğur, üstünlük qazanma və ya düşməni aldatma kimi başa düşülür. Bu kontekstdə Qərb mədəniyyətində zəfərin semantik yükü tamamilə fərqlidir. "Məqsəd vasitəyə bəraət qazandırır" prinsipinin dominantlıq təşkil etdiyi Qərbdə qarşı tərəf üzərində üstünlük hücumçu, fəthedici hərəkətlərlə əlaqələndirilir, məğlub tərəfin hüquqlarının tanınmasına, eləcə də öz fəaliyyətinə görə qanuni cəzasını çəkmək imkanına əhəmiyyət verilmir.

Beləliklə, "zəfər" anlayışının semantik və etik yükü mədəniyyətlərarası fərqləri açıq şəkildə göstərir və bu fərqlər bizim mövzu baxımından çox əhəmiyyətlidir. Zəfər – dünyagörüş mövqeyi, mənəvi dəyər, habelə varlıq üsuludur. Onun əsasında rəqibi aşmaq, ən geniş mənada hər cür maneəni dəf etmək və mübarizənin müsbət nəticəsinə nail olmaq məqsədi durur. Zəfərin subyekti şəxsiyyət ola biləcəyi kimi, sivilizasiyanı, mədəniyyəti, cəmiyyəti və ya dövləti təmsil edən xalq, yəni zəfər çalan xalq da ola bilər. Konseptual baxımdan zəfər mübarizənin müsbət nəticəsi kimi iki səviyyədə nəzərdən keçirilə bilər: hər hansı bir subyektin (şəxsiyyətin, cəmiyyətin, sivilizasiyanın) mövcud varlıq sərhədləri daxilində sınaq və çətinliklərin öhdəsindən gəlməsi; onun öz mövcudluq sərhədlərini aşaraq yeni vəziyyətə, daha yüksək keyfiyyətə və funksionallıq səviyyəsinə çatması. Birinci halda zəfər "taktiki" xarakter daşıyır; bu, inkişafın bir aspekti, şərti və faktoru kimi çıxış edir. İkinci halda isə zəfər "strateji" xarakter daşıyır; bu, yalnız subyektin öz mövcudluğunu qorumağa deyil, həm də onun yeni vəziyyətinə, daha yüksək keyfiyyət və funksionallıq səviyyəsinə çatmasına, geniş perspektivlərin və yaradıcılıq imkanlarının açılmasına xidmət edir. Bu, azadlıq konsepsiyasını dəqiqləşdirən, genişləndirən yaradıcı bir aspektdir. Hər iki halda zəfərin ortaq cəhəti onun mübarizə nəticəsində məqsədlərə çatmaq kimi baş verməsidir – zəfər mübarizənin nəticəsi, döyüşün yekunudur.

Gördüyümüz kimi, "zəfər" anlayışı mürəkkəb və çoxşaxəlidir və onun əhəmiyyətini yalnız linqvistika, tarix, semiotika, kommunikativistika və s. kimi müxtəlif sosiohumanitar bilik sahələrində işlənib hazırlanmış ideyaların vəhdətində təqdim etmək mümkündür. Buna görə də zəfərin mahiyyət və məzmun xüsusiyyətlərini təhlil etdikdən sonra bu hadisəyə yanaşmaları nəzərdən keçirmə lazımdır.

**2.Linqvistik yanaşma**

Linqvistik yanaşma sözlərin semantikasının, onların dil şüuru tərəfindən qavranılma xüsusiyyətlərinin aydınlaşdırılmasına diqqət yetirir. Bu yanaşma, xüsusilə də informasiya müharibələrində, qələbənin əldə olunması baxımından mühüm əhəmiyyət kəsb edir, çünki müharibələr əsasən dil oyunları və gündəlik dil konstruksiyalarının qurulması kimi diskursiv praktikalara da əsaslanır. Nitq qələbənin də mənəvi və əməli fəlsəfi zəminini yaradır, sözləri və ideyaları ilə döyüş meydanının önündəki qələbəni proqnozlaşdırır və onu şərtləndirir.

Ritorika sənətinin banilərindən biri olan sofist Qorqiy özünün "Yelenaya alqış" əsərində sözün gücü barədə belə yazırdı: "Söz böyük hökmdardır; o, kiçik və gözəgörünməz bir vücuda malik olsa da, möcüzəvi işlər görür. O, qorxunu qova, kədəri məhv edə, sevinc bəxş edə, mərhəməti oyada bilər... Sözə xas olan inandırma gücü insan ruhunu istədiyi kimi formalaşdırır." Bu fikirlər göstərir ki, söz və nitq təkcə ünsiyyət vasitəsi deyil, həm də ictimai şüurun və mənəvi hakimiyyətin formalaşma alətidir, yəni dilin semantik gücü bəzən hərbi gücdən daha dərin təsirə malik ola bilər.

Azərbaycan həmişə söz sənətinə dərin hörmət göstərmiş bir xalq kimi tanınır. Bu torpaq öz zamanında Nizami, Füzuli, Nəsimi, S.Vurğun, B.Vahabzadə, R.Rza və bir çox digər söz ustalarını dünyaya bəxş edib. Sözün qüdrəti bu xalqın Böyük zəfərində də öz izini qoymalı idi. Lakin bu dəfə söz gücü yalnız şairlərin və yazıçıların yox, birbaşa dövlət başçısının — liderin dili ilə özünü göstərdi.

44 günlük Vətən müharibəsi zamanı Prezident İ.Əliyevin etdiyi bir sıra çıxışlar səslənən aforizmlərə çevrilib və xalq arasında geniş yayılıb. Onlar sadəcə siyasi və hərbi mesaj verməkdən çox, milli ruhu və mənəvi qətiyyəti ifadə edən simfonik bir ritorikadır. O, texniki dövlət dili ilə xalqın emosional dilini ustalıqla birləşdirir, nəticədə sözlər həm qanuni və strateji, həm də dərin mənəvi və emosional təsir daşıyır. Bu nitqdə "biz" kollektiv birliyin, dövlət–xalq həmrəyliyinin simvoludur. Prezident İ.Əliyevin çıxışlarında tez-tez istifadə olunan metaforalar və simvollar — "döyüş meydanı", "qisas", "haqq yolu", "dəmir yumruq" — sadəcə poetik təsvir deyil, eyni zamanda milli ədalətin bərpası, Lider-Xalq-Dövlət-Ordu birliyinin və tarixi qələbənin simvolik ifadəsidir.

Hər bir metafora həm xalqın mənəvi motivasiyasını yüksəldir, həm də düşməni demoralizasiya edir. Misal üçün, "Biz onları it kimi qovacağıq" ifadəsi həm qətiyyətin, həm də düşmənə qarşı hüquqi və strateji mövqenin simvoludur. "Qarabağ Azərbaycandır!", "Güclü dövlət, güclü ordu, güclü xalq — bizim yolumuzun əsasıdır", "Bizim heç vaxt başqasının torpağında gözümüz olmayıb", "Biz ermənilər deyilik" kimi ifadələr milli şüar və aforizm kimi xalqın yaddaşına dərindən hopur, həm milli birliyi, həm də mənəvi haqq savaşı ideyasını gücləndirir.

Uzun periodik cümlələr, paralelizm və təkrarlar ("Biz dedik — etdik, etdik — dedik", "Heç kim bizi yolumuzdan döndərə bilməz — çünki bu yol haqq yoludur, ədalət yoludur, Zəfər yoludur") isə ritmik axıcılıq yaradaraq nitqin psixoloji təsirini maksimuma çatdırır. "Bizim qisasımız döyüş meydanındadır", "Biz onların cavabını döyüş meydanında veririk" ifadələri ədalətli müharibə obrazını formalaşdırır. İlham Əliyev intiqam və qisası yalnız hərbi əməliyyatlar kontekstində, yəni mülki əhaliyə qarşı deyil, düşmən qüvvələrə qarşı legitim hesab edir. Qeyd edək ki, döyüş boyu heç bir Azərbaycan əsgəri erməni əhalisini və ya mülki obyektləri hədəf almadı, amma belə çirkin addımları Ermənistan silahlı qüvvələri həyata keçirdi ki, bunu da Gəncə və Bərdə şəhərində baş verənlər təsdiq edir."Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!", - dövlətimizin başçısının xalqa müraciətində dediyi bu sözlər mənəvi və hüquqi məsuliyyəti birləşdirir, eyni zamanda xalq arasında "haqq savaşı" ideyasını gücləndirir, hər bir azərbaycanlını Şanlı Zəfərə kökləyirdi. Lakin burada söhbət yalnız sözlərin gücündən getmir. Burada həm də strateji fəlsəfə, universal ədalət və etik prinsiplər ifadə olunur: hər bir hərbi əməliyyatın həm hüquqi, həm də mənəvi əsasları var, xalqın dəstəyi ilə əldə olunan hər bir qələbə tarixi ədalətin bərpasına xidmət edir. Bu yanaşma həm daxili auditoriyada milli qüruru və vətənpərvərliyi yüksəldir, həm də xarici auditoriyada Azərbaycanın hərbi və diplomatik mövqeyini gücləndirir.

Prezident İ.Əliyevin nitqi yalnız siyasi məzmunla məhdudlaşmır; o, sözlərin fəlsəfi və mənəvi yükünü də ön plana çıxarır. Onun liderlik epitetləri dövlətin möhkəmliyini, xalqın iradəsini və tarixi məsuliyyətini əks etdirir. "Müstəqil və sarsılmaz dövlət" ifadəsi yalnız siyasi mövcudluğu deyil, həm də dövlətin etik və mənəvi dayaqlarını vurğulayır. "Qətiyyətli rəhbər" və "möhkəm iradəli lider" epitetləri isə zamanın sınaqlarını dərk edən, tarixi çağırışlara cavab verən lider obrazını yaradır.

Xalq obrazı isə İ.Əliyevin nitqində həm sosial, həm də metafizik ölçüdə verilir. İ.Əliyev xalqı "fədakar", "mərd" və "qürurlu" kimi təsvir etməklə onun mənəvi dayaqlarını və iradəsini ön plana çıxarır. "Birlik və həmrəylik nümunəsi olan xalq" ifadəsi cəmiyyətin etik harmoniyasını, "vətənpərvər gənclik" epiteti isə gələcəyin ideoloji və mənəvi daşıyıcılarını simvollaşdırır. Beləliklə, xalqın qələbəsi yalnız fiziki deyil, həm də mənəvi və etik zəfər kimi təqdim olunur.

Vətən və torpaq epitetləri də Prezident İ.Əliyevin nitqində metafizik dəyərlə zəngindir. "Müqəddəs torpaq" və "əziz yurd" ifadələri insan və xalqın mənəvi kimliyinin simvoludur. "Doğma Vətən" və "qədim torpaq" epitetləri tarixi və mədəni bağlılığı, "azad və bütöv

Azərbaycan" ifadəsi isə xalqın hüquqi və mənəvi tamamlığını əks etdirir. Bu epitetlər torpağı yalnız coğrafi bir vahid deyil, milli ruhun və əxlaqi məsuliyyətin mərkəzi kimi təqdim edir.

İ.Əliyevin düşmənə yönəlmiş epitetləri isə etik və fəlsəfi kontrast rolunu oynayır. "Namərd və məkrli düşmən" ifadələri haqq və ədalət yolunun, "qaniçən işğalçı" epiteti isə hüquq və insanlıq prinsiplərinə zidd hərəkətlərin simvoludur. Beləliklə, düşmən obrazı yalnız təhlükə və əngəl kimi deyil, həm də etik müqayisə və mənəvi dərs kimi təqdim olunur.

Prezident İ.Əliyevin epitetləri yalnız ritorik bəzək deyil, nitqin ideoloji və mənəvi strukturunu formalaşdırır. Onlar xalqı və ordunu bir məqsəd ətrafında toplamaq, müharibə və siyasəti universal dəyərlərlə əlaqələndirmək, dinləyicidə qürur, mənəvi məsuliyyət və vətənpərvərlik hissi oyatmaq funksiyasını daşıyır.

İ.Əliyevin nitqində ritorik suallardan istifadəyə də rast gəlmək olur. İ.Əliyev ritorik sual verərkən özü də ona cavab verir ki, bu da monoloq şəklində olan nitqi dialoqa daha yaxın edir və danışanla dinləyici arasında əlaqə yaratmağa imkan verir.

Filoloq R. Hüseynov "Hər nitq bir əsərdir" adlı məqaləsində yazır: "Prezident İlham Əliyev haçan kürsüdə olubsa, hansı mövzuda danışıbsa, həmişə nitqi parlaq olub, ifadə etdiyi həqiqətlərlə, fikirlərinin məntiqi ardıcıllığı, sözlərin, ifadələrin dəqiq seçimi ilə dinləyəni cəlb və heyran edib....2020-ci il sentyabrın 27-dən - ermənilərin özlərinə xas quldur və terrorçu xisləti ilə Azərbaycana bütün cəbhə boyu növbəti hücuma keçəndən, bunun ardınca şanlı ordumuzun əks həmləylə bir-birinin ardınca qələbələr çalmasıyla müşayiət edilən zəfər marafonunun başlanmasından sonrakı hər çıxışı, hər müsahibəsi, hər müraciəti özü-özlüyündə tarixi bir hadisə, siyasi nitq mədəniyyətinin qızıl səhifələri sayılmalıdır" [Hüseynov, 2020].

Beləliklə, Prezident İ.Əliyevin dili həm poetik, həm emosional, həm də etik təsir gücü ilə zəngindir. Onun nitqində lider və dövlət obrazı fəlsəfi çalarlarla dolur, xalqın mənəvi dayaqları ön plana çıxır, torpaq və tarix anlayışları yalnız fakt deyil, dəyər və ideal kimi də təqdim olunur. Nəticədə İ.Əliyevin nitqi siyasi və ideoloji mesajı fəlsəfi və mənəvi ölçüyə qaldıran bir təsir vasitəsinə çevrildi.

Bir sözlə, İ.Əliyev lider-natiq ritorikası ilə milli idealları, tarixi ədaləti və hərbi strategiyanı eyni məkanda birləşdirə bildi. Bu, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının və ordusunun ruhunu yüksəldən, birgə qələbəni mümkün edən strateji-dil faktorlarından biridir.

Prezident İ.Əliyev xalqına qələbə sevincini də söz vasitəsilə çatdırmağı bacardı. "Müqəddəs torpaqlarımızı azad etmişik", "Doğma Qarabağımıza qayıtmışıq", "Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz səni yenidən dirçəldəcəyik!" — Ali Baş Komandanımızın bu sözləri yaddaşlara əbədi həkk olundu.

**3.Tarixi-hüquqi yanaşma**

Tarixi-hüquqi yanaşma zəfərin əsas zaman mərhələlərinin təhlilinə, böyük nailiyyətlərlə yanaşı, bu qələbənin əldə olunması üçün xalqın verdiyi itkilər, keçdiyi sınaqlar və fədakarlıqların yadda saxlanılmasına diqqət yetirir. Tarixi yanaşmanın ümumi nəzəri əsasını ifadə etmək üçün bəzən "tarixilik prinsipi" termini işlədilir. Bu prinsip ən geniş mənada tədqiq olunan hadisənin yalnız mövcud vəziyyətini deyil, həm də onun keçmişini, tarixi mərhələlərini və müxtəlif dövrlərdə keçirdiyi dəyişiklikləri nəzərdən keçirmə zərurətini bildirir. Tədqiqatımız üçün bu yanaşmanın əhəmiyyəti həm də ondan ibarətdir ki, bu zaman biz tarixi təcrübədən çıxarılan nəticələri, gələcək perspektivləri müəyyənləşdirmək, Böyük Zəfərin bu gün və sabah yaşayanlar üçün mənəvi dəyərinin qiymətləndirilmək imkanını əldə etmiş oluruq. Tarixi nəticələrin ayıq və obyektiv qiymətləndirilməsi cəmiyyətin mənəvi təhlükəsizliyi baxımından da mühüm əhəmiyyət kəsb edir. Tarixi yaddaşın itirilməsi isə

yalnız keçmişə biganəlik deyil, həm də ictimai dəyərlərin deqradasiyası və gələcək nəsillərin mənəvi dayaqlarının zəifləməsi kimi təhlükəli nəticələrə gətirib çıxara bilər. Təsadüfi deyil ki, 2006-cı ildə alman tarixçisi və kulturoloqu, antropoloqu A.Assman yaddaşın son onillikdə mədəniyyətşünaslıqda əsas anlayışlardan birinə çevrildiyini qeyd edirdi" [Assmann, 2006, s.179].

Tarixi-hüquqi yanaşma zəfərlə bağlı hüquqi sənədlərin, beynəlxalq müqavilələrin və razılaşmaların təhlilini də əsas məqsəd kimi qarşıya qoyur. Bu yanaşma həmin sənədlərin legitimliyinin, yəni hüquqi əsaslarının müəyyənləşdirilməsini, eləcə də onların etik baxımdan əsaslandırılmasını və ədalət prinsipinə uyğunluğunu araşdırmağı nəzərdə tutur.

Tarixi ənənələrimizdə zəfərin xatırlanması məğlub üzərində məsxərə, təhqir və ya hədsiz sevinc üçün bir səbəb kimi qəbul edilmir. Əksinə, bu yaddaş məsuliyyətli və ayıq tarixi düşüncə forması kimi təzahür edir.

Tarixi-hüquqi yanaşma hər hansı sosial hadisəni araşdırılmasında həmişə səmərəli olmuşdur. Elə mövzumuzla bağlı da qeyd etmək lazımdır ki, bir çox müharibə və təcavüzün səbəbləri dövlətlərin və xalqların keçmişdəki hərəkətlərindən qaynaqlanır. Tarixi yanaşma cəmiyyətin inkişafındakı kritik vəziyyətlərdə və digər cəmiyyətlərlə toqquşmalarda təkrarlanan müəyyən hərbi, geosiyasi, iqtisadi və sosial qanunların təkrarlanmasını nəzərə alır. Bəzən müharibənin səbəblərini və ya hərbi təcavüzün dəf edilməsini anlamaq məsələsində yeni bir şey icad etməyə ehtiyac olmur: tarixi təcrübəyə müraciət etmək kifayətdir. Bu mənada ölkəmizdə müharibəqabağı dövrün əsas xüsusiyyəti ondan ibarət idi ki, beynəlxalq danışıqlar prosesi formal olaraq fəallığını qorusa da, əslində iflic vəziyyətinə düşmüşdü. Ermənistan işğal altında saxladığı ərazilərdə nəzarətini möhkəmləndirir, hərbi-siyasi infrastrukturunu gücləndirir, Azərbaycan isə diplomatik və hərbi təzyiq alətlərini artıraraq, beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyü və torpaqların azad olunması hüququnu israrlı şəkildə müdafiə edirdi. Müharibə bir tərəfdən ədalətin zəfər çalmasından xəbər verərkən, digər tərəfdən münaqişənin hərbi yolla həlli, təəssüf ki, beynəlxalq hüquqi nizam üçün başqa bir fəlakətin carçısı idi.

Burada biz Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsini şərtləndirən hüquqi bazadan - Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdən söhbət açmalıyıq. Belə ki, Azərbaycanın diplomatik səyləri ilə müharibədən BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Parlamenti, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı qətnamə və qərarlar qəbul etmişdirlər. Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən bu sənədlərin qəbul edilməsi dövlət başçısı İlham Əliyevin yürütdüyü ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi.

Eyni zamanda Azərbaycan BMT Nizamnaməsinin özünümüdafiə bəndinə (51-ci maddə) istinad edərək Ermənistanla münaqişənin hərbi yolla həllini heç vaxt istisna etməmişdi. Dövlətimizin başçısı xatırladırdı ki, beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının mütləq icra edilməli olan dörd qətnaməsinin olmasına baxmayaraq, bu işğal davam edirdi. ATƏT-in bu məsələ ilə məşğul olması üçün xüsusi qrup təsis etdiyini deyən dövlətimizin başçısı 28 il ərzində həmin qrupun sıfır nəticə hasil etdiyini vurğulayırdı.

Bu ziddiyyətlərin kəskinləşməsi 2020-ci ildə ərazilərin azad olunması ilə nəticələnən Vətən müharibəsinə gətirib çıxardı.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması

ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirirdi.

**4.Semiotik yanaşma**

Semiotik yanaşma zəfərin işarəvi-simvolik məzmununu ön plana çıxarır. Simvollaşdırma (yunanca *σύμβολον*— işarə, nişan) obyektin simvollar vasitəsilə təqdim olunması, yəni bir obrazın digər sxematik obrazla əvəzlənməsi prosesidir; bu əvəzlənmə bənzərlik yaxud razılaşma əsasında baş verir. Geniş mənada simvol hər hansı bir hadisəni və ya anlayışı ifadə edən (əvəzləyən) bir əşya deməkdir. U.Uorner "Dirilər və ölülər" əsərində qeyd edirdi ki, simvol iki komponentdən ibarətdir: işarə (nişanə) və mənalandırma (təfsir) [Уорнер, 2000, s.671].

Simvolizmin fəlsəfi əsaslarını işləyib hazırlayanlardan biri olan E.Kassirer hesab edirdi ki, insanın mədəni həyatı simvollaşdırma qabiliyyəti ilə şərtlənən spesifikliyə malikdir. E.Kassirerə görə, insanı yalnız *homo sapiens* kimi deyil, həm də animal symbolicum — "simvol yaradan varlıq" kimi xarakterizə etmək lazımdır, çünki hər bir insan ətraf aləmlə işarə və simvollar vasitəsilə qarşılıqlı əlaqələrdə olur və onu simvolik sistem kimi qavrayır. E.Kassirer bunu belə ümumiləşdirir: "*Simvol insan varlığının təməl prinsipidir....*" [Кассирер, 2002, s.13].

Hər bir sosial hadisə, o cümlədən Böyük Zəfər kimi tarixi dönüş nöqtələri, yalnız faktlar toplusu deyil — həm də mənaların, simvolların və kollektiv təsəvvürlərin məcmusudur. Hadisələrin mənası fərdi və ictimai şüurda simvolizasiya, vizuallaşdırma, sakrallaşdırma və fetişləşdirmə kimi proseslər vasitəsilə formalaşır və konstruksiya olunur. Bu proseslər arasında fetişləşdirmə xüsusi əhəmiyyətə malikdir. Fetişləşdirmə müəyyən hadisə və ya obrazlara sakral, fövqəltəbii mənaların verilməsi, onları gündəlik reallıqdan çıxarıb ideallaşdırılmış səviyyəyə yüksəltmə prosesidir. Fəlsəfi baxımdan bu, cəmiyyətin öz varlığını və dəyərlər sistemini qorumaq üçün mənəvi simvollar yaratmaq cəhdidir. Zəfərin fetişləşdirilməsi onun sadəcə hərbi və ya siyasi hadisə deyil, mənəvi, ideoloji və metafizik hadisə kimi qavranılmasıdır. Bu baxımdan Böyük Zəfər "xeyirlə şərin amansız mübarizəsində" ədalətin təntənəsi kimi təqdim olunur.

Böyük Zəfər məhz bu mənada müqəddəs məna qazanmışdır. 44 günlük Vətən müharibəsində qazanılan qələbə yalnız torpaqların azad olunması deyil, həm də tarixi ədalətin bərpası, milli kimliyin və mənəvi bütövlüyün təsdiqidir. Bu səbəbdən Azərbaycan cəmiyyətində "Zəfər" anlayışı sadəcə hərbi termin deyil — mənəvi kateqoriya, "həyat uğrunda mübarizənin" rəmzidir.

Fetişləşdirmə mexanizmi həm də rituallar və simvollar vasitəsilə güclənir. Zəfərin ən mühüm simvollarından biri Zəfər Günüdür. Bu günün qeyd olunması kollektiv yaddaşın və milli həmrəyliyin əsas komponentinə çevrilib. Zəfər Günü təkcə tarixə hörmət ifadəsi deyil, həm də kollektiv yaddaşın, milli birliyin və mənəvi özünüdərk prosesinin, eləcə də Azərbaycan ordusunun gücünün təzahürüdür.

Digər mühüm simvol Zəfər paradlarıdır. 2020-ci ilin dekabrında Bakıda keçirilmiş Zəfər paradı bu mənada tarixi hadisə oldu. Bu mərasim yalnız hərbi güc nümayişi deyil, həm də kollektiv kimliyin canlı ifadəsi, xalqın və ordunun birliyinin rituallaşdırılmış forması idi. Belə rituallar — Zəfər paradları, şəhidlərin xatirəsinə həsr olunmuş abidələr, televiziya

layihələri və sənədli filmlər Zəfərin fetişləşməsinin mədəni təzahürləridir. Bu simvollar vasitəsilə qələbə canlı saxlanılır, cəmiyyətin emosional və mənəvi yaddaşında möhkəmlənir.

Tarixi qələbənin simvolik təcəssümlərindən biri də orden və medallardır. Hər bir orden, döyüş meydanında göstərilmiş şücaətin və xalqın birliyinin simvolu olaraq, kollektiv yaddaşda Zəfərin əbədiləşdirilməsinə xidmət edir.Vətən Müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri də təsis olundu. Eyni zamanda, "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis edildi.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı sərəncamla sentyabrın 27-si Azərbaycanda müharibədə həyatını itirən şəhidlərin xatirəsinin yad edildiyi Anım Günü elan edildi. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir. Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olunub. Habelə 83 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına, 33 nəfər isə "Zəfər" ordeninə layiq görülüb. Şuşaya çəkilən və başa çatmaq üzrə olan Zəfər yolu da Böyük Zəfərin rəmzidir.

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması istiqamətində işlər davam etdirilir. Düşmən üzərində qələbənin təbliği məqsədilə Bakıda açılan Hərbi Qənimətlər Parkı hər bir azərbaycanlıda sonsuz iftixar və qürur hissi yaradır. Zəfər bayramında populyar olan təşəbbüslərdən biri interaktiv ünsiyyətlə zəngin olan aksiyalardır (ağacəkmə və s. aksiyalar). Zəfər gününə həsr olunmuş bu cür aksiyalar bütün sahələrinin nümayəndələrinin bir araya gələrək ünsiyyət qurmasına imkan yaradır. Biz əminik ki, növbəti illərdə bayram qabağı keçirilən müxtəlif aksiyaların sayı yalnız artacaq.

Beləliklə, Böyük Zəfərin fetişləşdirilməsi — onun mənəvi, sakral və ideoloji məna ilə yüklənməsi — milli kimliyin möhkəmlənməsi, ictimai həmrəyliyin qorunması və dövlətin simvolik dayaqlarının gücləndirilməsi baxımından həyati əhəmiyyət kəsb edir. Bu prosesin təməlində xeyir və ədalət uğrunda mübarizənin müqəddəsliyi ideyası dayanır. Zəfər beləliklə təkcə keçmişin yaddaşı deyil, həm də gələcəyin mənəvi enerjisi kimi yaşayır.

Qarabağ müharibəsi dezinformasiya ilə mübarizədə həmrəyliyin zəruriliyini bir daha göstərdi. 44 günlük Vətən müharibəsi dövründə şahidi olduğumuz yalan və böhtanlar bu məsələnin nə qədər vacib olduğunu xatırlatdı və qüvvələrin birləşdirilməsinin zəruriliyini nümayiş etdirdi. Müharibə yalnız döyüş meydanında aparılmadı — 44 gün ərzində yazılı və vizual KİV-dən tutmuş sosial mediaya qədər bir çox sahədə gərgin mübarizə getdi. Belə şəraitdə 44 günlük İkinci Qarabağ müharibəsi və onun nəticələri təkcə hərbi deyil, həm də kommunikasiya fenomeni kimi dəyərləndirilməlidir. Məhz buna görə də Böyük Zəfərə kommunikativ yanaşma xüsusi aktuallıq kəsb edir, çünki Böyük Zəfərimiz təkcə döyüş meydanında qazanılmış tarixi hadisə deyil — həm də ideoloji və kommunikativ resursdur. Müasir dünyada informasiya təkcə faktların ötürülməsi vasitəsi deyil, həm də mənaların, simvolların və dəyərlərin formalaşma meydanıdır. Bu baxımdan Zəfəri həm dövlət, həm də cəmiyyət səviyyəsində milli kimliyin, tarixi yaddaşın və ədalət hissinin informasiya məkanında qorunmasının əsas komponenti kimi nəzərdən keçirmək olar.

Eyni zamanda Böyük Zəfərə kommunikativ yanaşma zəfərin mənəvi və tarixi dəyərini dəyərsizləşdirməyə çalışan qüvvələrin yaratdığı neqativ təsəvvürlərin aradan qaldırılması yollarını, “zəfər” anlayışının informasiya aspektlərini, onun ictimai şüurda formalaşan obrazını və təqdimat mexanizmlərini müəyyənləşdirməyə imkan verir. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarını və fəaliyyətini Zəfərin yaxınlaşmasına töhfə kimi dəyərləndirmək olar. Müharibədən əvvəl, müharibə zamanı və sonrasında Prezident 40-dan çox beynəlxalq KİV-ə müsahibələr verdi, Bakıda beynəlxalq konfranslar təşkil etdi, qlobal tədbirlərdə iştirak etdi və verdiyi müsahibələrdə Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə ardıcıl şəkildə çatdırdı. Bu gərgin diplomatik və informasiya fəaliyyəti nəticəsində Azərbaycan Ermənistanın illərlə yaratdığı dezinformasiya “çətirini” dağıtdı.

Bu fəaliyyət informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, Ermənistanın uzun illər yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi. İnformasiya müharibəsinin ən gərgin çağında aparılan ardıcıl kommunikasiya cəbhəsi, Azərbaycan ordusunun uğurları ilə paralel olaraq, beynəlxalq aləmdə Azərbaycanın haqlı mövqeyini müdafiə etdi və legitimləşdirdi. Başqa sözlə, Azərbaycan diplomatiyası və kommunikativ siyasəti döyüş meydanındakı qələbə qədər önəmli “siyasi qələbə” qazandı.

Azərbaycana qarşı dezinformasiya hücumları tam aradan qalxdımı? Xeyr. Əksinə, Qələbədən sonra bu hücumlar daha aqressiv, çoxsaylı və kəskin formada davam edir. Müharibədən sonrakı Azərbaycana qarşı yönəlmiş informasiya və diskursiv təzyiqlər Zəfər simvolikasını gözdən salmaq məqsədi daşıyır. Qərb ictimai şüurunda qələbəmizin mənfi imicinin formalaşdırılması həm tarixi yaddaşın transformasiyasına, həm də qlobal güc balansının dəyişdirilməsinə xidmət edir. Deməli, dezinformasiya ilə mübarizə davamlı, sistemli və strateji yanaşma tələb edir. Cəmiyyət daim yeni informasiya hücumlarına hazır olmalıdır. Bütün resurslar — dövlət, vətəndaş cəmiyyəti, media məkanının və təhsil sistemi bu istiqamətdə səfərbər edilməlidir.

Beləliklə, Zəfər heç vaxt müstəsna olaraq taktiki və ya strateji nəticələrlə məhdudlaşmır. O, dərin simvolik, sosiomədəni, siyasi və s. əhəmiyyətə malik olmaqla cəmiyyətin mənəvi inkişafında yönəldici meyar və birləşdirici amil, milli həmrəyliyin və sosial həyatın meyarı kimi çıxış edir, keçmişin qiymətləndirilməsi, həmçinin bu günün və gələcəyin dərk olunması üçün bir başlanğıc nöqtəsi və meyar funksiyasını yerinə yetirir. Məhz bu baxımdan bu çoxşaxəli sistemi “Zəfər fəlsəfəsi” adlandırmaq olar. Axı “oxşar oxşarla dərk olunur”. Bizim mövzu baxımından bu qədim prinsip o mənanı verir ki, 44 günlük müharibədə qələbənin əhəmiyyətinin dərk edilib qiymətləndirilməsi yalnız qeyri-elmi bilik vasitələrinin, ilk növbədə fəlsəfi vasitələrin vətköməyi ilə mümkündür. Bütün digər humanitar və təbiət elmləri sahəsində hər hansı islahat məhz bu paradiqmal əsasdan başlamalıdır. Sosiologiya, psixologiya, antropologiya, kulturologiya, eləcə də iqtisadiyyat, hətta fizika, kimya, biologiya və digər sahələr fəlsəfəyə əsaslanır, onun törəmələridir. Alimlər çox vaxt bunu unudurlar, amma nəzərə alınmalıdır ki, Qərbdə PhD elmi dərəcəsinin sinonimi belə səslənir: *Philosophiae Doctor* — “fəlsəfə doktoru”. Əgər sən filosof deyilsənsə, alim yox, ən yaxşı halda öyrədicisən, çünki latınca *doctor* “alim”, “müdrik” deməkdir. Burada yalnız elmi-obyektivist yanaşma *sine ira et studio* yetərli deyil.

Hegel qeyd edirdi ki, millətin böyüklüyü böyük fəlsəfi sistemin yaradılmasından başlayır. O, bu sözləri yalnız irəli sürməmiş, həm də öz fəlsəfi irsi ilə bunu həyata keçirmişdir. Biz də Zəfər fəlsəfəsini yaratmalıyıq. Onsuz bütün nailiyyətlərimiz boşuna çıxacaq və uğurlarımız asanlıqla məğlubiyyətə çevrilə bilər, çünki Böyük Zəfərin sosial hadisə kimi mürəkkəblik dərəcəsi o qədər yüksəkdir ki, onun ontoloji, qnoseoloji,

 

antropoloji və aksioloji ölçülərini yalnız fəlsəfi refleksiya çərçivəsində üzə çıxarmaq mümkün olur. Zəfər fəlsəfəsində zəfərin ontoloji, qnoseoloji, antropoloji və aksioloji ölçüləri bir-birini istisna deyil, tamamlamalıdır. Bu yanaşmaların sintezi bizim Böyük Zəfər haqqnda biliklər diapazonumuzu xeyli genişləndirər və zənginləşdirər. İndi həmin ölçülərin təhlilinə keçid edək.

Zəfər fenomeninin *ontoloji ölçüsü* "Olum ya ölüm" kimi suala cavabda cəmləşmişdir: zəfər yoxluğa zidd olaraq varlığı təzahür etdirən "Olum!" cavabını nəzərdə tutur. Ontoloji aspektdə zəfər həyatın ölüm üzərində qələbəsi kimi çıxış edir. Bir sıra fəlsəfi konsepsiyalarda qələbə varlığı yoxluqdan qoruma, İşıq və Şər, İşıq və Qaranlıq qüvvələri arasında həlledici mübarizə kimi şərh olunur.

Artıq qeyd etmişdik ki, bütün dövrlərdə müharibədə düşmən üzərində inandırıcı qələbə qazanmaq istəyi həm döyüşçülərin əsas məqsədi, həm də dövlət rəhbərliyinin və ölkə əhalisinin ümumi arzusunun ifadəsi olmuşdur. Bu məqsədə çatmaq üçün əsgərlər öz qanlarını və həyatlarını əsirgəməmiş, arxa cəbhədə çalışanlar isə öz güclərini və sağlamlıqlarını fəda etmişlər. Qələbə yalnız müharibənin məntiqi nəticəsi deyil, həm də mənəvi mükafat, sınaqlardan və əzabdan keçən insanın mənəvi təmizlənməsi kimi qəbul edilmişdir. Belə ki, məsələn, antik ənənədə müharibə insan cəmiyyətinin təbii və zəruri hadisəsi kimi qiymətləndirilirdi. Heraklit deyirdi ki, müharibə (Polémos) "hər şeyin atası, hər şeyin şahıdır: bəzilərini tanrı, bəzilərini insan, bəzilərini qul, bəzilərini azad edir". Heraklitin bu fikri müharibəni sadəcə dağıdıcı qüvvə kimi deyil, yeni varlıq forması doğuran ontoloji yenilənmə mexanizmi kimi dərk etməyə imkan verir. Bu məntiqdə qələbə təkcə fəth deyil, yaradılış aktıdır: qələbə vasitəsilə varlığın yeni qaydası, mövcudluğun yeni mənası bərqərar olur.

Platonun düşüncələrində də qələbə yalnız zahiri hadisə kimi deyil, həm də ruhun daxili nizamlanması kimi başa düşülürdü. "Fedr" dialoqunda Platon insanın ali və aşağı təbiəti — süvari və atlar arasındakı mübarizədən bəhs edir; burada ağlın ehtiraslar üzərində qələbəsi ruhun harmonizasiyasının şərtidir. Beləliklə, qələbə ontoloji harmonizasiya, insan mikrokosmosu daxilində kosmosun bərpası kimi başa düşülür. "Qanunlar" əsərində Platon vurğulayır ki, qanunvericilik müharibəni yox, sülhü rəhbər tutmalıdır, çünki qanunlar vətəndaşlar üçün ən yaxşı olana yönəlir, sülh də bu ən yaxşı olanı təcəssüm etdirir. Eyni zamanda, Platonun "Dövlət" əsərində göstərildiyi kimi, müharibəyə hazırlıq və hərbi təlim polisin təhlükəsizliyini təmin etmək üçün qaçılmaz zərurətdir.

Aristotel *teleos* ideyasını inkişaf etdirərək, fəaliyyəti (o cümlədən hərbi fəaliyyəti) mövcudatın potensialını reallaşdırma yolu kimi görürdü. Bu mənada qələbə — varlığın imkanının aktuallaşması, təbiətin kamilliyə can atmasının (*entelecheia*) həyata keçməsidir. Aristotelin fəlsəfəsində biz "müharibənin məqsədi sülhdür" fikrinə də rast gəlirik: "Xoşbəxtlik asudəlikdədir, biz asudə olmaq üçün asudəliyimizi itiririk və sülh içində yaşamaq üçün müharibə aparırıq. Heç kim sadəcə müharibə etmək üçün müharibə etmir, yaxud müharibəni onun özü naminə hazırlamır; axı, yalnız döyüşmək və öldürmək üçün dostlarını belə düşmənə çevirmək istəyən adam çox qəddar görünər" [Аристотель, 1983, s.53]. Burada filosof onu demək istəyir ki, müharibə, mahiyyət etibarilə, dəhşətli bir təcrübə olsa da, bəzi istisna hallarda müharibədə iştirak daha məqsədəuyğun hesab edilə bilər. Buna bənzər fikirlərə Siseronda da rast gəlmək mümkündür. Onun fikirlərinə görə, "müharibələr qanunsuzluğa yol vermədən, sülh içində yaşamaq məqsədilə başlanmalıdır" [Цицерон, 1993, s.67]. Bu cür müharibələrdə — yəni ədalətli, əsaslandırılmış və ya haqlı hesab olunan müharibələrdə iştirak — müharibəni dayandırmaq və sülh həyatına qayıtmaq arzusu ilə əlaqələndirilir. Gördüyümüz kimi, filosoflar müharibənin təbiətini və ona qatılmağın əsaslı səbəblərini fərqli izah etsələr də, bir məqamda razılaşırlar ki, müharibə sülh naminə aparılır. Bu isə o deməkdir ki, müharibədə iştirakın əsas məqsədi müharibənin

özünün sona çatdırılmasıdır. Müharibə gedişinə görə deyil, yekun nəticəsinə görə qiymətləndirilir; zəfərin nəyin bahasına başa gəlməsindən daha çox ölkənin və xalqın, onların sayəsində isə bütövlükdə dünyanın əldə etdiyi nailiyyətlər baxımından dəyərləndirilir. Zəfər müharibəni yalnız başa çatdırmır, onu həm də təmizləyir və ona haqq qazandırır. Bu fikirlər bizim üçün ona görə əhəmiyyətlidir ki, 44 günlük müharibədə iştirak etmiş insanlar da yeni müharibələr naminə deyil, sülh naminə vuruşmuşdurlar.

Stoiklər isə əksinə, həqiqi qələbənin düşmən üzərində deyil, insanın özü üzərində olduğunu vurğulayırdılar: "*Qələbə qazanan o deyil ki, düşməni məğlub edir, qələbə qazanan özünə sahib çıxandır*" (Epiktet). Burada qələbə açıq şəkildə ontoloji xarakter daşıyır — o, daxili sabitliyə, varlığın loqosu ilə uyğunluğa nail olma vəziyyətini bildirir.

Yeni dövrün başlanğıcı və dövlətlər arasında müharibələrin meydana çıxması ilə müharibəyə baxış da dəyişmiş və onun tarixi-beynəlxalq konteksti genişlənmişdir. Burada birinci dərəcəli istinad nöqtəsi Kant hesab olunur, çünki o, ilk dəfə olaraq dünya nizamı naminə aparılan müharibəyə dair siyasi nəzəriyyəni işləyib hazırlamışdır. Kantın "Əbədi sülhə doğru" proqram əsəri sülh müqaviləsinin modelini təklif edir; bu vasitə ilə onun praktik fəlsəfəsinin prinsipləri siyasət və dövlətlərarası münasibətlərə tətbiq olunmalıdır. Lakin belə bir müqavilənin zəruriliyi onunla izah olunur ki, sülh bəşəriyyətin təbii vəziyyəti kimi qəbul edilmir, buna görə də müharibənin aradan qaldırılması müqavilə yolu ilə təmin edilməlidir. Kantın tarix fəlsəfəsi mənəvi subyektə sadiq qalır və "əbədi sülh" ideyasında bu vəzifənin normativ və tənzimləyici nəticələrini vurğulayır. Kantın mühakimələri xüsusi əhəmiyyət kəsb edir, çünki Kant heç bir şübhəyə yol vermədən vurğulayır ki, sülh hər hansı siyasi hərəkət üçün həm şərt, həm vasitə, həm də məqsəd kimi qəbul edilməlidir. Bununla belə Kant müharibəni tamamilə rədd etmir [Кант, 2019]. Onun baxış bucağı altında analiz edildikdə, 44-günlük Vətən müharibəsinin məntiqi və məqsədi haqqında aşağıdakı düşüncələr ortaya çıxır: 1. müdafiə hüququ: hücum hərbi təcavüz hesab olunarsa, dövlətin ona qanuni şəkildə cavab vermək hüququ var. Kant təcavüzlə müdafiəni bir-birindən ayırd edir — reaksiyanın qanuni və ədalətli olması vacibdir; 2. sülh məqsədi: hətta qanuni hərbi tədbirlər belə qısamüddətli intiqam və ya güc nümayişi üçün deyil, davamlı sülhün təmin olunmasına yönəldilməlidir. Kant vurğulayır ki, hər bir hərəkət beynəlxalq kontekstdə "əbədi sülh"ün təşviqinə xidmət etməlidir; 3.hüquqi vasitələr: hərbi cavab hüquqa və mənəvi prinsiplərə uyğun olmalıdır, yəni yeni hüquq pozuntusuna və ya yeni aqressiyaya gətirib çıxarmamalıdır. Başqa sözlə, hüquqi kontekstdə Kant müharibəni təcavüzə yol verilən mümkün reaksiya kimi nəzərdən keçirir.

Beləkilə, Kant nə "bəli", nə də "xeyr" cavabı verir. O, sadəcə etik-hüquqi yol təklif edir: müharibəyə müdafiə məqsədilə haqq qazandrmaq olar, amma həmişə ali sülh və hüquq prinsipləri nəzərə alınmalıdır. Onu da qeyd edək ki, Kant atəşkəs müqavilələrini rədd edirdi, çünki, onun fikirlərinə görə, onlar müharibəni sadəcə təxirə salır, lakin həqiqi sülh yaratmır. Kantın fikirləri bizim üçün ona görə əhəmiyyətlidir ki, Azərbaycan torpaqlarını işğaldan azad etməsi üçün dünya ictimaiyyətinin Ermənistana təzyiq göstərə bilməməsi, 30 ilə yaxın davam edən münaqişənin sülh yolu ilə həlli istiqamətində irəliləyişin olmaması müharibəni qaçılmaz etmişdir.

Klassik alman fəlsəfəsində müharibənin dərk edilməsində həlledici rolu isə Hegelin düşüncələri oynamışdır. Hegeldə müharibə və qələbə dialektik mənada izah olunur. "Ruhun fenomenologiyası"nda qələbə tanınma anı kimi çıxış edir: ruh inkar və mübarizə mərhələsindən keçərək, özünü bütün varlıq kimi təsdiqləyir. Bu mənada qələbə ayrıca bir hadisə deyil, ruhun hərəkəti, mütləq varlığın ziddiyyət və inkar vasitəsilə özünü açması və reallaşdırmasıdır. Beləliklə, qələbənin ontoloji aspektini müharibə ilə müqayisədə xaosdan kosmosa, yoxluqdan varlığa, dağıntıdan yaradılışa keçid kimi ifadə etmək olar. Qələbə sadəcə münaqişənin başa çatması deyil, həyatın ontoloji təsdiqi aktıdır; bu aktda varlıq öz

dinamik mahiyyətini — özünü aşmaq və yenidən yaratmaq qabiliyyətini üzə çıxarır. Hegelin dialektik modelində müharibəyə tarixin "dünya məhkəməsi"ndə əsas rol verilmir, lakin onun vasitəçilik (və ya arbitraj) funksiyası tanınır ki, bu da əslində Kantın "əbədi sülh" layihəsini sarsıdır. Hegelin fikrincə, müharibənin "yüksək əhəmiyyəti" onun "çürük durğunluğu" dağıtmaq qabiliyyətindədir: bu durğunluq əbədi sülh vasitəsilə dünyanı bürüyə bilərdi. Hegelin tarix fəlsəfəsi müharibələri inkişafın zəruri mərhələləri kimi qiymətləndirir. Müharibə ümumdünya-tarixi funksiyanı o mənada yerinə yetirir ki, "o, küləklərin hərəkəti dənizi çürüməkdən qoruduğu kimi, xalqların da mənəvi sağlamlığını mövcud son vəziyyətlərə laqeydlikdən qoruyur...". Hegelə görə, daimi və ya əbədi sülh durğun bir vəziyyətə çevrilərdi, bu isə tarixin axarını dayandırar və azadlığı qurban verərdi. Hegel inanırdı ki, müharibə irrasional deyil. O, reallığın əsas xüsusiyyəti olmaqla tarixi tərəqqi prinsipini təcəssüm etdirir [Hegel, 1970, s.491].

M.Şeler 1915-ci ildə dərc etdirdiyi "Müharibə dühası" adlı əsərində bir tərəfdən müharibəni kapitalizmin çökməsinin nəticəsi və forması kimi təqdim edir, digər tərəfdən isə müharibəni insan üçün bir növ dirçəliş və mənəvi təmizlənmə kimi təsvir edir. Maraqlıdır ki, Şeler öz əsərində klassik alman fəlsəfəsi dövründən bir epiqraf gətirmişdir: "Amma müharibənin də öz şərəfi var, insan taleyi üçün hərəkətverici qüvvəsi var" [Scheler, 1915]. F.Şillerə məxsus olan bu sitat müharibəyə ümumbəşəri-tarixi tərəqqinin vasitəçisi kimi baxışı əks etdirir.

Birinci dünya müharibəsinin başa çatmasından sonra Şeler müharibə "dühası" barədə baxışlarını yenidən nəzərdən keçirdi. Həm onun, həm də onun müasirləri üçün müharibənin ağrılı təcrübəsi hər şeyi dəyişdirən bir hadisə oldu və Avropa intellektuallarını müharibələrin mənası və məqsədlərini yenidən düşünməyə vadar etdi. Müharibələri yalnız dağıdıcı qüvvənin müdaxiləsi kimi qiymətləndirən və onların sosial həyatdakı mənası və məqsədini prinsipial olaraq inkar edən açıq pacifist mövqe ilə yanaşı, belə bir inam da geniş yayıldı ki, müharibə təcrübəsi dekadansın (fransızca *décadence* — çöküş, zəifləmə) aradan qaldırılmasına səbəb ola, insan varlığı haqqında əhəmiyyətli şeyləri üzə çıxara bilər.

Müharibə varlığın həddindən artıq gərginlik vəziyyətidir; burada insan, cəmiyyət və mədəniyyət varlığın davamı ilə yoxluqda əriyib itməyə qədər olan fundamental seçim qarşısında qalır. Əgər müharibə bir "hədd"dirsə (Martin Haydeggerin terminologiyasında — *Grenzerfahrung*, yəni hədd təcrübəsi), o zaman qələbə həmin həddi aşmaq, varlığın bir növ "ekstazı", sərhəd vəziyyətindən yeni mövcudluq üfüqünə çıxmaq deməkdir. Haydegger qeyd edirdi ki, insanın həqiqi varlığı yalnız ölümə münasibətdə üzə çıxır: "*Ölümə-doğru-varlıq əsl varlıqdır (Dasein)*". Beləliklə, qələbə ölümün inkarı deyil, onun dərk və qəbul vasitəsilə aşılması, yoxluq qorxusunun həyatın təsdiqinə transformasiyasıdır.

Haydeggerdən gətirilən bu fraqmentdən belə çıxır ki, qələbə "həddi aşmaq", yəni insanın yoxluğun (ölüm, dağıntı, xaos) mümkünlüyü ilə üz-üzə gəldiyi sərhəd vəziyyətindən çıxışdır.

Belə bir keçid transsendent xarakter daşıyır — insan gündəlik varlığının sərhədlərini aşır, varlığın dərin qatları ilə təmasda olur. Bu artıq sadəcə "uğur" və ya "nailiyyət" deyil, ekzistensial bir dəfetmədir, insanı sakrallığa yaxınlaşdıran bir təcrübədir.

Deyilənləri ümumiləşdirərək, qeyd etmək olar ki, zəfərin ontoloji dərkinin metodoloji əhəmiyyəti zəfərin sakrallığını dərk etmək imkanındadır. Zəfər sakraldır, çünki varlıq və yoxluq sərhədində baş verir; kosmosun və mənanın bərpasını ifadə edir; həyatın ölüm üzərində qələbəsini təcəssüm etdirir; qalibə yeni varlıq bəxş edir, onu yaradılış aktının iştirakçısına çevirir.

Zəfərə ontoloji yanaşmanın evristik potensialı həm də ondadır ki, bu, qalibin mövcudluğunun müvafiq mərhələdən əvvəl və sonra necə dəyişdiyini, onun yenilənməsini və inkişaf perspektivlərini anlamağa imkan verir.

Zəfərin *qnoseoloji ölçüsü* qələbəni mümkün edən təməl prinsipləri müəyyən etməyə, onun nə dərəcədə əvvəlki şəraitlə şərtləndiyini üzə çıxarmağa imkan verir.

Kollektiv mübarizə forması olan müharibədə düşmən müvəqqəti və təsadüfi olur. Əsgərin özü isə özünü ümumi məqsədi yerinə yetirən kollektivin bir hissəsi kimi hiss etməlidir. “Düşmən” kimi abstrakt anlayışdan əlavə bir sıra digər abstrakt anlayışlar da yaranır: “vətən”, “döyüş yoldaşları”, “cəsarət” və s. Bunlara idraki obrazlar demək olar. Bu obrazların interpretasiyası nəticəsində müəyyən xüsusiyyətlərə malik olan və sosial reallığın bir növ əvəzedicisi kimi çıxış edən inikas yaranır. Abstraktlaşdırma, abstrakt düşünmə qabiliyyəti qələbə fenomeninin qnoseoloji ölçüsü hesab edilə bilər.

Lakin “düşmən”, “vətən”, “döyüş yoldaşları” və s. kimi abstraksiyaların formalaşdırılması imkanından başqa, təfəkkürün rasionallığı səbəb-nəticə əlaqələrini nəzərə almaqla ideal məqsədyönlü fəaliyyətin həyata keçirilməsində özünü göstərir ki, bunun da nəticəsi məntiqi zəncirlər və sübutlar qurmaq qabiliyyətində özünü göstərir. Müharibə – kabinet şəraitində aparılan laboratoriya təcrübəsi deyil; onun gedişində xətalar, o cümlədən strateji miqyaslı səhvlər qaçılmaz olur. Müharibədə vasitələrin istifadəsi rasionallıq meyarına uyğun olmalıdır; yəni qələbə mümkün qədər az resurs xərci ilə əldə edilməlidir. Nəticənin əldə edilməsinin effektivliyi onun maddi dəyəri və əhəmiyyətində ifadə oluna bilər. Burada qeyd etmək yerinə düşərdi ki, Azərbaycan tərəfdən “dronlar” kimi tanınan pilotsuz uçuş aparatlarının da daxil olduğu müasir hərbi texnologiyalardan istifadə edilməsi çoxlu sayda insan itkisinin qarşısını aldı. Azərbaycan bu qələbəni 44 günə əldə etdi. 44 gün ərzində Azərbaycan ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi.

Zəfərin qnoseoloji ölçüsü bu fenomenin izahı zamanı sərt determinasiya sxemlərindən imtina edilməsini tələb edir, çünki yuxarıda qeyd etdiyimiz məntiqi-metodoloji konstruksiyalar qələbəyə doğru düzgün hərəkət yolunun təcəssümü ola bilməz. Artıq qeyd etdidik ki, müharibədə qələbə qazanmaq bütün müharibələrin məqsədidir. Hərbi qələbənin əldə olunması, hər şeydən əvvəl, düşmənin silahlı qüvvələri üzərində qələbə ilə bağlıdır. Lakin bu məqsədin əldə edilməsi avtomatik olaraq qalib üçün qənaətbəxş sülhün təmin olunmasına gətirib çıxarmır. Müharibənin son məqsədi qalib üçün əlverişli olan sülhdür. Əks halda müharibə davam edəcək; məğlub olan tərəf ya məğlubiyyətini qəbul etməli, ya da son əsgərlə birlikdə məhv olmalıdır. Bu hal göstərir ki, hərbi qələbə ilə qənaətbəxş sülh müqaviləsi arasında zəruri bir əlaqə var, lakin nəzəriyyədən fərqli olaraq praktikada bu, həmişə belə olmur, çünki reallıqda çoxlu şərait və faktorlar mövcud olur ki, bu sərt determinasiyanın həyata keçməsinin qarşısını ala bilər. Başqa sözlə, qələbə klassik rasionallığın ideallarının təcəssümü kimi nəzərdə keçirilə bilməz: qələbəni irrasional amillər də şərtləndirə bilər. Bu mənada Böyük Zəfərimizin əsasında xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdəti, xalqımızın torpaqların azad edilməsi naminə “Dəmir yumruq” kimi birləşməsi durur. Bununla da qələbənin *psixoloji ölçüsü* üzə çıxmış olur.

Müharibədə psixologiya yeni bir anlayış deyil: o, müharibə qədər də qədimdir. Çin hərb filosofu generalı Sun Dzı-nun, alman hərbi nəzəriyyəçisi K.fon Klauzevits-in əsərlərində psixoloji amillərin hərbi uğurun həlledici amillərdən biri olduğu vurğulanırdı.

Psixologiyanın müharibədə rolu və əhəmiyyətinə bir çox tarixi nümunələr göstərmək olar. Məsələn, Napoleon İspaniyanı fəth edə bilmədi, Rusiyanı ələ keçirə bilmədi, amerikanlar da yüksək motivasiyaya malik Vyetnam xalqının ruhunu sındıra bilmədilər.

Müharibə Fövqəltələblər irəli sürən Fövqəlvəzifədir və bu vəzifənin yerinə yetirilməsi Fövqəlsəylər tələb edir. Axı söhbət təkcə döyüşün nəticəsindən, özünün və yoldaşlarının həyatından deyil, həm də ölkənin taleyindən gedir. Müharibənin bir məqsədi var - düşməni məhv etmək, ələ keçirmək və məğlub etmək; amma düşmən də axı buna can atır! Buna görə də müharibədə zəngin təxəyyül və sürətli intuisiya tələb olunur ki, böyük iradə gücü və düşmənin niyyətlərini reaksiyalarını qabaqcadan görə, taktiki və strateji priyomları tətbiq

edə biləsən. Sərhəd vəziyyəti — müharibə — insanın zaman qavrayışının subyektivliyini kəskin şəkildə artırır, onu həyat və ölüm arasında "ekzistensial sərhəd" çərçivəsinə salır. Adi şəraitdə bəzən diqqətdən kənarda qalan, bizi nadir hallarda düşündürən şəxsi varlıq, insanın mövcudluğu məsələsi müharibədə özünün tam əhəmiyyəti ilə üzə çıxır, çünki zorakılıqla ölmək, "izsiz yox olmaq" ehtimalı çox yüksək olur. Bu səbəbdən öz üzərində sərəncam vermək imkanları çox məhdud olan insan zaman barədə düşünməyə başlayır: "Nə qədər vaxt qalıb?" "Onu necə istifadə etmək olar?". İnsan nəyisə etmək, bir şey demək, məktub yazmaq və s. üçün tələsir. Müharibədə, xüsusilə də ön cəbhədə zaman tamamilə fərqli bir dəyər əldə edir, onun ekzistensial baxımdan qavranılması güclənir. Burada önəmli rol oynayan amil — insanın ölüm təhlükəsi ilə üz-üzə qalması və hər an həyatın həssaslığı barədə düşünməyə məcbur olmasıdır; bu, hər hərəkət, hər qərar və hər əlaqəni əhəmiyyətli edir, hər dəqiqə qiymət qazanır və varlığın dərin mənasını ortaya çıxarır. Müharibənin sonunu heç də hamının görməyəcəyinin dərk edilməsi zamana xüsusi münasibəti, "gələcək planlarını qurmamaq", "bu günü yaşamaq" kimi praqmatik prinsipləri formalaşdırır.

Veteranların müharibədə yaşadıqları psixoloji hissləri yalnız onların hekayələrini dinləməklə təsəvvür etməyin mümkün olduğunu nəzərə alaraq, biz 44 günlük Vətən müharibəsinə həsr olunmuş materialları bu kontekstdə araşdırdıq. Psixoloji nəticələrlə bağlı bu materiallarda göstərilir ki, döyüş xəttinə yaxın yaşayış məntəqələrində yaşayan insanlar davamlı narahatlıq vəziyyətində olmuş, bu da onların məkan ("hər həyətdə sığınacaq vardı", "divarın o tayında cəbhə idi") və zaman ("davamlı gözləmə, təşviş") qavrayışını dəyişmişdir.

Təhlillər göstərir ki, 44 günlük Vətən müharibəsi zamanı döyüşçülərimiz stressə dözümlülük, soyuqqanlılıq, qətiyyətlilik, iradə gücü, uyğunlaşma və çevik düşünmə, ani qərarlar vermək bacarığını nümayiş etdirmiş və bu keyfiyyətləri döyüş boyunca maksimum səviyyədə qoruyub saxlaya bilmişlər. Döyüş zamanı yaralanan hərbi qulluqçularımız tezliklə tibbi heyətin köməyi ilə yenidən döyüş meydanına, silahdaşlarının yanına qayıtmaq istəyirdilər. Döyüş meydanında çəkilmiş çoxsaylı videolardan görünür ki, qəhrəman Azərbaycan əsgəri döyüşə başlamazdan əvvəl yüksək əhval-ruhiyyəyə malik olub, xalq mahnı və muğamlarımızı ifa etməklə özünü ruhən hazırlayır və döyüşə kökləyirdi [Rüstəmov, 2023]. Prezident İ.Əliyevə yazılan məktublarda onlar "Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma!" deyirdilər. Azərbaycan əsgərini döyüşlərə motivə edən maddi dəyərlər deyil, mənəvi dəyərlər olan mərdlik, şücaət və qəhrəmanlıq hissləri idi. 20–25 yaşlı gənclərimiz yüksək iradi keyfiyyətlər nümayiş etdirirdilər. Həmin dövrdə on minlərlə həmvətənimiz Müdafiə Nazirliyinə müraciət edərək könüllü olaraq cəbhəyə gedib döyüşlərdə iştirak etmişdirlər. Onların arasında müxtəlif peşə və yaş qruplarından olan şəxslər olmuşdur.

Müharibədən sonra onun iştirakçılarının tanış sülh məkanına qayıtması müharibədən əvvəlki qavrayışlarına geri dönmək demək deyil, çünki onlar artıq hərbi təcrübə ilə zənginləşmiş və dəyişmişdirlər. Müharibə onların şüurunda bir növ hədd, həyatın xüsusi bir dövrü kimi qəbul ediləcəkdir. Ümumiyyətlə, bu müharibədə göstərilən qəhrəmanlıq nümunələri hələ uzun müddət psixoloqlar tərəfindən də öyrəniləcək və təhlil ediləcək. Zənnimizcə, zəfərin psixoloji ölçüsündə əsas element səfərbərlik qabiliyyətidir, çünki istənilən cəmiyyət səfərbər olmağı, o cümlədən müharibəyə də səfərbər olmağı bacarmalıdır.

Sosial hadisələrin, o cümlədən zəfər fenomeninin öyrənilməsi zamanı qiymətləndirmə amilini eliminasiya etmək olmaz, çünki hər hansı sosial hadisənin müəyyənləşdirilməsində ən mühüm element formal strukturlar, qaydalar və prosedurlar deyil, insanların qərar qəbul etməsi və davranışlarını qurması üçün əsas olan dəyərlər toplusudur. Bu, artıq problemə *aksioloji ölçünü* tətbiq etməyə imkan verir. Aksioloji ölçü bizə Böyük Zəfərin əsasında

duran və insanlarımızı mənəvi olaraq dəstəkləyən dəyərləri (haqq, ədalət, mərhəmət, humanizm, vətənpərvərlik, qarşılıqlı yardım, Vətənə sədaqət və s.) və onların müharibə dövründə davranışına təsir mexanizmini aşkara çıxarmağa imkan verir. Bu məsələ son dərəcədə əhəmiyyətlidir, çünki birbaşa ölkəmizin suverenliyinin və milli maraqlarının təmin edilməsi, təhlükəsizliyinin möhkəmləndirilməsi, gənclərimizin tərbiyələndirilməsi məsələlərinin həlli ilə bağlıdır. Azərbaycanın dövlət, xalq, cəmiyyət olaraq inkişafında varisliyi məhz bu dəyərlər təmin edir.

Müharibənin də bütün mərhələlərində qeyd edilən dəyərlər ən müxtəlif formalarda təzahür edirdi. Məsələn, həmin ərəfədə Azərbaycanın Qarabağda keçirilən antiterror əməliyyatları zamanı əsir götürdüyü bir neçə erməni əsirini azad etməsi, Azərbaycanın Qarabağda yaşayan ermənilərə humanitar yardımın tərkib hissəsi olaraq, ermənilərin Azərbaycanın Kəlbəcər bölgəsindəki Xudavəng Monastırını ziyarət etməsi və Rusiya təbii qazının Azərbaycan üzərindən Ermənistana nəqlinə icazə verməsi humanizmin bariz nümunələrindəndir. Bu nümunələrdə, hətta düşməndə belə insanı görmək bacarığında bizim milli xarakterimiz özünü göstərir. Məlum olduğu kimi, Spitakdakı zəlzələdən də dərhal sonra Ermənistana ilk yardım əlini uzadanlardan biri Azərbaycan xalqı olmuşdur.

Xalqımızın vətənpərvərliyinin göstəricisidir ki, həmin dövrdə bir nəfər də olsun döyüş meydanını tərk edən olmamışdır, fərari olmamışdır. Bütün xalqımız Vətən uğrunda ölümə getməyə hazır idi. Vətənpərvərliyinin həmin dövrdə geniş vüsət almış bir növü kimi mülki əhali tərəfindən cəbhəyə yardımı da göstərmək lazımdır. "Hər şey Zəfər üçün!" devizi altında əsgərlərimiz üçün tibbi paketlər, ərzaq, meyvə, "İlk yardım çantası" və s. göndərilirdi. Arxa cəbhə olaraq əhali ön cəbhədəkilərə əlindən gələn dəstəyi göstərirdi.

Lakin, zənnimizcə, Böyük Zəfərin mahiyyətini daha dolğun şəkildə əks etdirən dəyər ədalət və haqq ideyasıdır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan haqq işini aparırdı – bu, işğal altında olan torpaqların azad edilməsi, tarixi ədalətin bərpası uğrunda mübarizə idi. 44 günlük Vətən müharibəsində xalqın birliyini və ordunun gücünü məhz bu haqq və ədalət hissi möhkəmləndirdi. Əsgərlər döyüşə gedərkən bilirdilər ki, onlar təkcə torpaq uğrunda deyil, ədalətin bərpası uğrunda vuruşurlar. Prezident İlham Əliyevin sözləri ilə desək, "*biz güclü idik, çünki bizim haqqımız var idi, ədalət bizim tərəfimizdə idi*", "*Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi*". Məhz bu mənəvi üstünlük Azərbaycanı Böyük Zəfərə aparan əsas amillərdən biri oldu.

Bu prizmadan baxdıqda, suverenliyin, müstəqilliyin qorunması uğrunda dövlətimizin və cəmiyyətimizin taleyüklü müharibədə qələbəsi eyni zamanda bu cəmiyyətin hər bir iştirakçısı üçün şəxsi qələbə kimi dəyərləndirilir və əksinə, şəxsi uğur da ümumi qələbənin bir hissəsi sayılır.

Böyük Zəfərin əsas mənəvi dayaqlarından biri də bu haqq uğrunda döyüşlərin getdiyi müqəddəs torpaqların, xatirə məkanlarının dəyəridir. Hər bir azad edilən şəhər və kənd — ədalətin bərpasının rəmzi, Azərbaycan xalqının tarixində əbədi iz qoymuş məkandır. Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, "*biz torpaqlarımıza qayıtdıq, ədaləti bərpa etdik, Qarabağ Azərbaycandır!*"

44 günlük Vətən müharibəsi təkcə hərbi qələbə deyil, həm də mənəvi məkanın, milli yaddaşın bərpası oldu. Şuşa, Füzuli, Cəbrayıl kimi şəhərlər bu gün haqqın və ədalətin qalib gəldiyi yerlər kimi Azərbaycan xalqının qürur simvollarına çevrilib. Prezident İlham Əliyev Şuşada demişdir: "*Şuşa bizim qəlbimizdə, ruhumuzda yaşayan şəhər idi, indi isə biz oradayıq – bu, ədalətin təntənəsidir*". Bu müqəddəs yerlərin qorunması, abadlaşdırılması və gələcək nəsillərə ötürülməsi həm də Zəfərin mənəvi davamıdır. Hər bir şəhid məzarı, hər bir döyüş yeri xalqın yaddaşında ədalət uğrunda mübarizənin simvolu kimi yaşayır: "*Biz təkcə torpağı* azad etmədik - ruhları da azad etdik... bu qayıdış təkcə bir tarix deyil, bir ruhun

dirilişidir. Mədəniyyətin, musiqinin, düşüncənin, ruhun əbədi varlığının dirilişi" [Bakuvi, 2025].

Ordumuzun döyüşdüyü və postmüharibə dövrü üçün "xatirə yerləri" olan bu məkanlar yalnız düşmənə qarşı barışmazlıq deyil, həm də fədakarlıq, cəsarət, vətənpərvərlik və Vətənə sədaqət dəyərlərinin formalaşmasına xidmət edir. Buna görə də Böyük Zəfər kollektiv və fərdi şuurda tarixi yaddaş fenomeni olan dəyərdir. Vətən Müharibəsi qəhrəmanlarının qəhrəmanlığına həsr olunmuş abidələr şəhərlərimizdə və xalqımızın həyatında mədəni həyatın mərkəzlərinə çevrilməli, nəsillərarası əlaqəni göstərən xüsusi dəyərlər statusu qazanmalı, erkən yaşdan vətəndaşlıq ideallarının və normalarının formalaşdırılmasına xidmət etməlidir. Postmüharibə dövrümüzün mədəniyyəti müharibə və Qələbə mövzusu ilə sıx bağlı olmalıdır və bu, ədəbiyyatda və təsviri sənətdə, musiqidə və teatrda, kino və digər sahələrdə öz əksini tapmalıdır. vətənpərvərlik sahəsində, o cümlədən İkinci Qarabağ savaşı mövzusunda olan bədii, sənədli və animasya filmlərinin istehsalına diqqət artırılmalıdır. Düzdür, bu sahədə milli kinematoqraf çox işlər görür. Məsələn, Post-prodakşna dəstək müsabiqəsi çərçivəsində eyni mövzuya həsr olunan "Geri dönüş" ["Geri dönüş", 2024] və "Səssiz zaman" ["Səssiz zaman", 2024] tammetrajlı sənədli filmlərinin istehsalı başa çatmaqdadır. "Arılar və qəbirlər", "Borc", "Mənə bənzər adam", "Ağalı" tammetrajlı bədii filmləri, "Ölüm axtaran qadın" tammetrajlı sənədli filmi, "Müharibənin gözləri", "Danışır və göstərir Şuşa" qısametrajlı sənədli filmləri, "Nağıl istəyirəm!" qısa animasiya filmləri istehsal prosesindədir [ARKA, 2024]. 44 günlük müharibəyə həsr olunan "Göz bəbəyim" filmi artıq tamaşaçılara təqdim edilmişdir. "Salnamə", "Azərbaycanfilm" kinostudiyalarında Vətən müharibəsi ilə bağlı filmlər çəkilir. Bu filmlər bizim şəhidlərimizə, qazilərimizə həsr olunub.

Mahnıda da sözlər var ki, ən sərt ürəklərə belə çataraq onları Vətən müdafiəsinə qalxmağa ilhamlandıra bilər.

Mahnı əldə güclü silahdır. Mahnı da düşməni hər hansı bir silah kimi sarsıda bilər:

*Şeh ətirli bir səhərin xəbərini aldıq*
*Dedilər ki, başlayıbdır, əsgər, qisasın*
*Murov dağın zirvəsində bayraq ucaldı*
*44 günə vətənin yarası sağaldı.* (Atəş" mahnısı. Ceyhun Zeynalov və Nərmin Kərimbəyova).

Biz bunu "*yaddaş mədəniyyəti*" adlandırırıq. Yaddaş mədəniyyəti ən ümumi mənada cəmiyyətin öz keçmişi ilə necə davranmasını ifadə edir. Təbii ki, yaddaş mədəniyyətinin formalaşdırılmasında yaddaş siyasəti mühüm rol oynayır. Xatirələrin uzun müddət qorunması və gələcəkdə yenidən canlandırıla bilməsi üçün onlar daima aktuallaşdırılmalıdır. Təhsil proqramları, xatirə tədbirləri və media materialları kimi çoxsaylı amillərin rolunu nəzərə alaraq, Böyük Zəfər haqqında bütöv bir təsəvvürlər formalaşdırılmalıdır. Veteranların hekayələri, xatirələri və müsahibələri bu prosesdə xüsusi yer tutur. Həmin hadisələrin şahidləri tərəfindən səsləndirilən hər bir söz *tarixi yaddaşın qorunmasına misilsiz töhfə*dir. Sənədləri, ədəbiyyatı və hekayətləri birləşdirməklə biz Böyük Zəfər haqqında mümkün qədər *dərin təsəvvürlər yaratmağa* çalışmalıyıq. Və çox vacibdir ki, faktların və rəqəmlərin arxasında biz Tarixi yaradanları görə və eşidə bilək ki, gələcək nəsillərə öz torpaqlarını sevmək və qiymətləndirmək bacarığını, onların mətanətini ötürə bilək.

Burada bir mühüm amili nəzərə almaq lazımdır: müharibəni görmüş, onu yaşamış, onda iştirak etmiş insanlar bir zaman dünyadan köçəcək. Onda müharibə iştirakçıları ilə şəxsən ünsiyyət qurmaq imkanı olmayacaq. Artıq yalnız müharibə iştirakçıları ilə danışan nəsillə ünsiyyət qurmaq imkanı olacaq. Bununla da müharibə təcrübəsinin qavranılması getdikcə dolayı və vasitəli xarakter alacaq ki, bu da tamamilə fərqli bir mədəni vəziyyət yaradacaq.

Yenə A.Assmanın terminologiyasından istifadə etsək, müharibə ilə bağlı kommunikativ yaddaş dövrü başa çatmış olacaq və hadisələr barədə təsəvvürlər artıq yalnız mədəni yaddaş vasitəsilə – əsasən xatirə məqsədilə yaradılmış mətnlər və obyektlər sayəsində qorunacaqdır [Ассман, 2004]. Elə bu səbəbdən də Vətən müharibəsi haqqında yaddaşın gələcəyi proqnozlaşdırılması çətin bir hadisədir. Hər yeni nəsil müharibəni özünəməxsus şəkildə xatırlayacaq.

Zəfərin *antropoloji ölçüsü* qalib əsgərin şəxsiyyətinin yerini və rolunu, daxili güc və imkanlarını, hərəkətlərinin əsaslarını anlamağa yönəlir. Qeyd edilən yanaşmanı insanın mahiyyətindən çıxış etməklə həyata keçirmək olar. İnsanın belə mahiyyətdaşıyıcı xüsusiyyətlərindən biri azadlıqdır. İnsan yalnız bioloji, psixi və sosial varlıq deyil, həm də metafizik varlıqdır. Bu mənada o, bioloji növ olaraq öz qanunları və ya mədəni təkamül qanunları ilə sərt şəkildə determinasiya olunmur. İnsan qanunu onun insan olmaq istiqamətində səy göstərməsidir. İnsan – azadlıq imkanı və gerçəkliyidir.

Zəfərin antropoloji ölçüsü insan varlığının universal mənasını, var gücünü səfərbər edib qeyri-insani sınaqlardan keçərək hətta öz həyatının bahasına belə başqalarını xilas edən şəxsiyyətin imkanlarının hüdudlarını üzə çıxarmağa imkan verir. Hərbi xidmətin təməlini də, zənnimizcə, məhz bu ölçü təşkil edir: əsgər öz yolunu və əməllərini ali ideallar və dəyərlərlə müqayisə edir və onları Qələbədə təcəssüm etdirir.

Bu mənada Zəfərin antropoloji ölçüsü 44 günlük Vətən müharibəsində insanın — əsgərin, zabitin, vətənpərvər vətəndaşın — daxili mahiyyətinin, mənəvi gücünün və dəyərlər dünyasının necə təzahür etdiyini anlamağa kömək edir. Bu yanaşma Zəfəri yalnız hərbi və siyasi nəticə kimi deyil, insanın öz varlığını ali mənəvi məqsədlərlə eyniləşdirdiyi fenomen kimi dəyərləndirməyə imkan verir. Antropoloji baxımdan Vətən müharibəsində Azərbaycan əsgəri təkcə mübarizə aparan fiziki qüvvə deyil, həm də ruhun və iradənin daşıyıcısı idi. O, şəxsi həyatını ümummilli ideallarla birləşdirərək insan varlığının ali formasını nümayiş etdirdi. Prezident İlham Əliyevin dediyi kimi: "*Azərbaycan əsgəri haqq uğrunda, ədalət uğrunda*, Vətən uğrunda, *torpaqlarımızın azadlığı uğrunda vuruşur*. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq". Bu ifadə göstərir ki, insan davranışının mənşəyi təkcə hərbi intizamda və ya əmrlərdə deyil, daxili mənəvi inamda — ədalətə, haqqa və milli dəyərlərə sarsılmaz bağlılıqda idi. Əsgərin qəhrəmanlığı burada antropoloji məna qazanır: insan öz bioloji varlığını aşır, insanlığın mənəvi sərhədlərinə doğru yüksəlir.

44 günlük müharibə, əslində, insanın potensial imkanlarının reallaşdığı bir sınaq meydanı idi. Qeyri-insani şəraitdə, ölüm və həyat arasında insan öz varlığının mənəvi ölçülərini aşkara çıxardı. Döyüşçü fədakarlığı ilə insanın həm fərdi, həm də kollektiv mahiyyətini ifadə etdi — çünki bu mübarizə tək bir fərdin yox, xalqın bütöv bir orqanizm kimi hərəkət etdiyi bir hadisə idi. Prezident İ.Əliyev Zəfərin bu antropoloji dərinliyini belə ifadə etmişdi:

"*Bu qələbəni bizə xalqımızın birliyi, əsgərimizin ruhu, zabitimizin fədakarlığı gətirdi. Heç bir qüvvə bu ruhu sarsıda bilməz*".

Beləliklə, Zəfərin antropoloji ölçüsü — insanın ruhunun, azadlıq və ədalət hissinin, mənəvi bütövlüyünün qalib gəlməsi deməkdir. Əsgər burada yalnız əmri yerinə yetirən deyil, həm də haqqın daşıyıcısı, mənəvi dünyanın qoruyucusu kimi çıxış edir.

Bu baxımdan 44 günlük müharibə insanın mahiyyətini, onun azadlıq iradəsini və varlıq gücünü tam mənada ortaya çıxardı. Zəfər insanın "ola bilmə" potensialının gerçəkliyə çevrilməsi, insanın öz mahiyyətinə qayıdışı, onun mənəvi bütövlüyünün bərpası idi.

**5.Ekzistensial ölçü**

Ekzistensial ölçü insanın şəxsi varlığını, onun ekzistensiyasını əhatə edir. Müharibə, ümumiyyətlə, insan varlığının dərin qatlarını - insan həyatının müvəqqətiliyi və sonluluğunu, azad seçimin dəyərini, ekstremal vəziyyətdə davranışın mənasını, qorxu və

cəsarətin dialektikasını, şəxsi məsuliyyətin həddini üzə çıxaran fenomen kimi çıxış edir. K.Yaspers qeyd edirdi ki, qeyri-əsli varlıq – insanın cəmiyyətdə yaşadığı həyatdır; burada o, özünü təsdiqləmək üçün tez-tez özünü dəyişməyə məcbur olur. Əsl varlıq isə "sərhəd vəziyyəti" adlanan anlarda (müharibə, xəstəlik, fəlakət) açılır. İnsan öz mahiyyətini məhz bu vəziyyətdə dərk edir, çünki bu cür hadisələr öz "Mən"ini qavrama mexanizmini aktuallaşdırır, insanı bu dünyada yeri barədə düşünməyə vadar edir, ondan mənəvi seçim etməyi tələb edir. Öz "Mən"ini ekzistensial qavrama mexanizminin əsasını ölüm qarşısında qorxu fenomeni təşkil edir. Buna görə də o, həyatı üçün təhlükə şəraitində gündəlik qayğılardan "azad olur" və varlığının əsl mahiyyətinə - ekzistensiyaya çatır.

Bu mənada qalib əsgər də həyatla ölüm arasında şüurlu mənəvi seçim edən insandır. O, qorxu və ümidsizliyi məğlub edərək irəli gedir, düşməni deyil, ilk növbədə öz içindəki zəifliyi, tərəddüdü, qorxunu dəf edir. Qələbə bu baxımdan təkcə hərbi və ya fiziki hadisə deyil, həm də dərin ekzistensial təcrübədir. Zəfər həm fərd, həm də cəmiyyət üçün mənəvi məna daşıyır. Birincisi, bu qələbələr yalnız insanların fiziki varlığı ilə deyil, həm də onların mənəvi varlığı ilə bağlıdır: məqsəd şəxsiyyətin və cəmiyyətin mahiyyətini, suverenliyini və azadlığını qorumaqdır. İkincisi, qələbə həyat və ölüm mübarizəsində insanın öz varlığının sərhədlərini aşması, daxili gücünün son həddinə qədər səfərbər olması və nəticədə bu sərhədləri keçərək özünü aşmasıdır. Zəfər yalnız düşmənin məğlubiyyəti deyil — ən əsası, insanın özünü aşması, yeni şəxsi və sosial perspektivləri görməsi və onlara çatmaq üçün mənəvi qüvvə tapmasıdır. Demokritin dediyi kimi, "ən böyük qələbə insanın öz üzərində qələbəsidir, ən utancverici məğlubiyyət isə ehtirasların səni məğlub etməsidir".

Müharibə şəraitində insan varlığının yalnız mahiyyəti qalır: vicdan, inam, vəzifə, mənəvi məsuliyyət. Hər bir əsgərin qərarı — qalxmaq, döyüşmək, qorxunu aşmaq — varlığın dərin ekzistensial təzahürüdür. Bu mənada 44 günlük Vətən müharibəsi insanın "olmaq" məsələsini ən ali səviyyədə ortaya qoydu. Azərbaycan əsgəri üçün "olmaq" sadəcə yaşamaq deyildi — "olmaq" haqqı bərpa etmək, ədaləti təmin etmək, vətəni azad görmək demək idi. Prezident İlham Əliyev bu mənanı belə ifadə etmişdir: "*Biz bu müharibədə həm torpaqlarımızı azad etdik, həm də öz ləyaqətimizi bərpa etdik*". Bu sözlər ekzistensial səviyyədə insanın mənəvi bütövlüyə qayıdışını, öz varlığını azad və ləyaqətli şəkildə dərk etməsini bildirir.

**6.Nəticə**

Son olaraq onu qey etmə olar ki, zəfərin ekzistensial ölçüsü insanın qorxudan azad olub mənalı varlığa çevrilməsi, özünü Vətən, haqq və ədalətlə eyniləşdirməsidir. Zəfərin ekzistensial anlamında insan öz həyatını fərdi mənfəət üçün deyil, ümummilli dəyərlər və kollektiv varlıq üçün yaşayır. O, həyatını riskə atmaqla əsl mənada var olur — çünki həyat mənasız qorxudan deyil, mənalı fədakarlıqdan doğur. Şəhidin varlığı bu mənada "yoxluq" deyil, əksinə, varlığın mənasının təsdiqidir.

44 günlük Vətən müharibəsi insanın mənəvi möhkəmliyini, ruhun ölməzliyini və xalqın birliyində formalaşan ekzistensial qüdrəti üzə çıxardı. Vətən müharibəsi həm də Azərbaycan insanının varlıq sınağı idi — və bu sınaqdan o, qalib çıxdı, çünki öz varlığının mənasını haqqda, ədalətdə və azadlıqda tapdı. Lakin ekzistensial ölçü zəfərlə bitmir. Müharibədən sonrakı dövrdə də insanın varlığı yeni mərhələyə keçir — artıq qalib kimi, amma həm də daxili dəyişikliklərlə yaşayan şəxsiyyət kimi. Bu mərhələdə əsas məsələ — varlığın dinc şəraitdə mənasını tapmaq, müharibənin gətirdiyi təcrübəni mənəvi səviyyədə dəyərləndirmək və adaptasiya olunmaqdır. Amma arxa cəbhədə qələbə olmayacaqsa, bütün səylər boşa çıxacaq. Buna görə də bizə arxa cəbhə fəlsəfəsi də lazımdır: bu fəlsəfə cəmiyyətin şüurunu dəyişməli, döyüşdən qayıdan qəhrəmanlarımızı layiqincə qəbul etməyə hazırlamalıdır. Çünki dövlətin və xalqın taleyi, əsgərlərinin qələbə ilə hansı cəmiyyətə qayıdacağı ilə sıx bağlıdır. O, ölümü gördü, daşıdı, ölümlə üzləşdi. O, döyüşçü və

qəhrəmandır və hörmət tələb edəcək. Bu dövlət özü necə olacaq? Aydındır ki, o, əvvəlki kimi olmayacaq. Azərbaycan artıq başqa dövlətdir. Bu başqa dövlət — yenilənmiş, ucalmış dövlətdir. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!". Və döyüşdən qayıdan qəhrəmanlarımız da belə bir dövlətin inkişafına qoşulacaqlar. Döyüşdən qayıdan qaliblər inamla deyə bilməlidirlər: bu mənim vətənimdir, bu mənim xalqımdır, bu mənim cəmiyyətimdir, O, mənə və qəhrəmanlıqlarıma, bütün yoldaşlarımın qəhrəmanlıqlarına layiqdir, biz isə — döyüşdən qayıdanlar bu dövlətə, bu xalqa, bu cəmiyyətə layiqik. Beləliklə, sadalalan metodoloji yanaşmalar Böyük Zəfərin müxtəlif aspektlərini nəzərə almaqla onu obyektiv şəkildə kompleks perspektivdə nəzərdən keçirməyə imkan verir.

## 7.REFERENCES


1. Aristotel. (1983). *Nicomachean ethics*. In *Collected works in 4 volumes* (Vol. 4, pp.53–295). Moscow: Mysl’. (in Russian)
2. ARKA. (2024). *Films dedicated to the 44-day Patriotic War take part in local and international projects*. Retrieved from https://bizimyol.info/az/news/518687.html (in Azerbaijani)
3. Assmann, A. (2006). *Introduction to cultural studies: Basic concepts, themes, and questions*. Berlin: Erich Schmidt Verlag. (in German)
4. Assmann, J. (2004). *Cultural memory: Writing, memory of the past and political identity in the high cultures of antiquity*. Moscow: Yazyki slavyanskoi kultury. (in Russian)
5. Bakuvi, A. I. (2025). *The man who made a nation’s soul speak through notes*. Retrieved from https://yenisabah.az/bir-milletin-ruhunu-nota-danisdiran-adam (in Azerbaijani)
6. Hegel, G. W. F. (1970). *Elements of the philosophy of right or natural law and political science in outline* (Works in 20 volumes, Vol. 7, § 324, pp. 491 f.). Frankfurt am Main: Suhrkamp Verlag. (Original work published 1821). (in German)
7. *The film “Return” will be presented soon*. (2024). Retrieved from https://kinoinfo.az/geri-donus-filmi-tezlikle-teqdim-olunacaq (in Azerbaijani)
8. Huseynov, R. (2020). *Each speech is a work of art*. Retrieved from https://525.az/?name=xeber&news_id=153008#gsc.tab=0 (in Azerbaijani)
9. Kant, I. (2019). *Perpetual peace (collection)*. Moscow: RIPOL klassik. (in Russian)
10. Kassirer, E. (2002). *Philosophy of symbolic forms* (Vol. 1: Language; A. V. Mikhaylov, Trans.). Moscow: Akademicheskii proekt. (in Russian)
11. Rustemov, S. (2023). Psychological characteristics of military personnel behavior in combat conditions – ANALYSIS. *Ordu*. Retrieved from https://ordu.az/az/news/246748 (in Azerbaijani)
12. Scheler, M. (1915). *The genius of war and the German war*. Leipzig: Verlag der Weissen Bucher. (in German)
13. *Editing of the film “Silent Time” continues*. (2024). Retrieved from https://kinoinfo.az/sessiz-zaman-filminin-montaji-davam-edir (in Azerbaijani)
14. Tsitseron, M. T. (1993). *On old age. On friendship. On duties*. Moscow: Nauka. (in Russian)
15. Uorner, U. L. (2000). *The living and the dead: A study of the symbolic life of Americans*. Moscow – Saint Petersburg: Universitetskaya kniga. (in Russian)


## ƏDƏBİYYAT


1. Aristotel. (1983). *Nikomakhova etika*. In *Sobranie sochinenii v 4 tomakh* (Tom 4, pp.53–295). Moskva: Mysl’.

**2.** ARKA. (2024). *44 günlük Vətən Müharibəsinə həsr oluan filmlər yerli və beynəlxalq layihələrdə yer alır*. Retrieved from https://bizimyol.info/az/news/518687.html
**3.** Assmann, A. (2006). *Einführung in die Kulturwissenschaft: Grundbegriffe, Themen, Fragestellungen*. Berlin: Erich Schmidt Verlag.
**4.** Assmann, J. (2004). *Kul'turnaya pamyat': Pis'mo, pamyat' o proshlom i politicheskaya identichnost' v vysokikh kul'turakh drevnosti*. Moskva: Yazyki slavyanskoi kul'tury.
**5.** Bakuvi, A. İ. (2025). *Bir millətin ruhunu nota danışdıran adam*. Retrieved from https://yenisabah.az/bir-milletin-ruhunu-nota-danisdiran-adam
**6.** Hegel, G. W. F. (1970). *Grundlinien der Philosophie des Rechts oder Naturrecht und Staatswissenschaft im Grundrisse* (Werke in 20 Bänden, Bd. 7, § 324, pp. 491 f.). Frankfurt am Main: Suhrkamp Verlag. (Original work published 1821).
**7.** *"Geri dönüş" filmi tezliklə təqdim olunacaq*. (2024). Retrieved from https://kinoinfo.az/geri-donus-filmi-tezlikle-teqdim-olunacaq
**8.** Hüseynov, R. (2020). *Hər nitqi bir əsər*. Retrieved from https://525.az/?name=xeber&news_id=153008#gsc.tab=0
**9.** Kant, I. (2019). *K vechnomu miru (sbornik)*. Moskva: RIPOL klassik.
**10.** Kassirer, E. (2002). *Filosofiya simvolicheskikh form* (Tom 1: Yazyk; A. V. Mikhaylov, Trans.). Moskva: Akademicheskii proekt.
**11.** Rüstəmov, S. (2023). Döyüş şəraitində hərbi qulluqçuların davranışlarının psixoloji xüsusiyyətləri – ANALİZ. *Ordu*. Retrieved from https://ordu.az/az/news/246748
**12.** Scheler, M. (1915). *Der Genius des Krieges und der deutsche Krieg*. Leipzig: Verlag der Weißen Bücher.
**13.** *"Səssiz zaman" filminin montajı davam edir*. (2024). Retrieved from https://kinoinfo.az/sessiz-zaman-filminin-montaji-davam-edir
**14.** Tsitseron, M. T. (1993). *O starosti. O druzhbe. Ob obyazannostyakh*. Moskva: Nauka.
**15.** Uorner, U. L. (2000). *Zhivye i myortvye: Issledovanie simvolicheskoi zhizni amerikantsev*. Moskva – Sankt-Peterburg: Universitetskaya kniga.